29 noyabr 2023 №88 (2057)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azad edilmiş ərazilərdə üç ildə hansı işlər görülüb?

Noyabrın 28-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Qərargahın 3 illik fəaliyyətinin yekunlarına həsr olunmuş iclas keçirilib.



Qərargahın rəhbəri Samir Nuriyev iclası açaraq Azərbaycan Respublikası Prezidentinin məqsədyönlü, ardıcıl və müdrik siyasəti nəticəsində 2020-ci ilin noyabrında torpaqlarımızın işğaldan azad edilməsi ilə ölkəmizin və bütövlükdə regionun yeni strateji inkişaf mərhələsinə qədəm qoyduğunu diqqətə çatdırıb. Qeyd edib ki, 2023-cü ilin sentyabrında həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağdakı Ermənistan silahlı qüvvələrinin birləşmələri tərk-silah edilib, onların hərbi infrastrukturu zərərsizləşdirilib, işğaldan azad edilmiş bütün ərazilərdə Azərbaycan Respublikasının Konstitusiya quruluşu və suverenliyi tam bərpa olunub. Bu gün Azərbaycan xalqı öz tarixinin ən şanlı və qürurverici dövrünü yaşayır.

Samir Nuriyev ötən 3 ildə dövlətimizin başçısının verdiyi tapşırıqlara əsasən, işğaldan azad olunmuş ərazilərdə irimiqyaslı bərpa-quruculuq layihələrinin həyata keçirildiyini diqqətə çatdırıb. Qeyd edilib ki, bu sahədə qarşıya qoyulmuş vəzifələrin icrasında səmərəlilik, hesabatlılıq, qurumlararası qarşılıqlı kommunikasiya, operativlik Əlaqələndirmə Qərargahının fəaliyyətinin əsas prinsipləri olub.

Sonra antiterror tədbirləri nəticəsində suverenliyin bərpa edildiyi ərazilərdə zəruri məsələlərin həlli istiqamətində görülən işlər, "Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində ərazilərdə həyata keçirilən işlərin cari vəziyyəti, geri qayıdan əhalinin məskunlaşmasının, təhlükəsizliyinin və dayanıqlı məşğulluğunun təmin edilməsi, azad edilmiş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqlardan səmərəli istifadənin və rəqabətqabiliyyətli aqrar istehsalın təşkili ilə bağlı məruzələr dinlənilib.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ərazilərin mina və partlamamış hərbi sursatlardan təmizlənməsi sahəsində aparılan işlərə dair məruzə təqdim edilib.

Müvafiq ərazilər üzrə görülən işlərin cari vəziyyəti barədə məlumatlar da dinlənilib, tapşırıqlar verilib.

## Mədəniyyət və yaradıcı sənayelər bir-birini necə zənginləşdirə bilər?

### "Yaradıcı həftə" çərçivəsində forum keçirilir

### "Digər sahələr kimi, yaradıcı sənayelərlə də bağlı yol xəritəsi müəyyən etməliyik"

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə noyabrın 27-dən dekabrın 3-dək "Yaradıcı həftə" keçirilir. Dövlət başçısının müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrası ilə əlaqədar reallaşan layihənin məqsədi mədəniyyət və yaradıcı sənayelərin vahid sahə kimi formalaşmasının və bazar iştirakçılarının fəaliyyətinin dəstəklənməsi, o cümlədən sahəvi klasterləşmənin təşviqidir.



Zəngin proqramı olan "Yaradıcı həftə" çərçivəsində 28-30 noyabr tarixlərində Heydər Əliyev Mərkəzində Mədəniyyət və Yaradıcı Sənayelər Forumu keçirilir.

Forum ekosistem oyunçuları arasında qarşılıqlı əməkdaşlıq perspektivlərinin və mövcud problemlərin müzakirəsi, yaradıcı sənaye sahəsinin kompleks şəkildə inkişaf imkanlarının araşdırılması məqsədilə təşkil olunur.





Noyabrın 28-də forumun açılış mərasimi keçirildi. Tədbirdə dövlət rəsmiləri, müvafiq qurumların nümayəndələri, mədəniyyət işçiləri və digər qonaqlar iştirak edirdilər.

Əvvəlcə qonaqlar forum müddətində kreativ məhsulların və yaradıcı sənaye nümayəndələrinin fəaliyyətinin tanıdılması məqsədilə təşkil edilən Mədəniyyət və Yaradıcı Sənayelər Sərgisi (MY EXPO–2023) ilə tanış oldular.

Sərgi kino, animasiya, musiqi, cultech (mədəniyyət sahəsində startaplar), game-tech (oyun texnologiyaları), dəb, dizayn kimi yaradıcı klasterləri, eləcə də yaradıcı məkan və regionları bir araya gətirib.

Açılış mərasimində çıxış edən mədəniyyət naziri Adil Kərimli bildirdi ki, yaradıcı sənayelər mədəniyyətin vacib sahələrindən biridir: "Mədəniyyət Nazirliyi olaraq noyabrın 27-dən dekabrın 3-dək "Yaradıcı həftə" elan etmişik. Həftə çərçivəsində müxtəlif tədbirlər təşkil olunacaq. Mədəniyyət və Yaradıcı Sənayelər Forumu da həftənin əsas tədbirlərindən biridir. Forumdan gözləntimiz mədəniyyətin digər sahələri kimi, yaradıcı sənayelərin müxtəlif sahələrini müzakirə etmək, gələcək çağırışları üzərində işləmək və yol xəritəmizi müəyyən etməkdən ibarətdir".

Nazir bildirdi ki, dövlət tərəfindən bu sahəyə xüsusi yanaşma mövcuddur. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda mədəniyyət və yaradıcı sənayelərə xüsusi yer ayrılıb. Bu, dövlətin mədəniyyət və yaradıcı sənaye sahəsinə nə dərəcədə önəm verdiyinin göstəricisidir: "Düşünürük ki, forumun bu kontekstdə böyük əhəmiyyəti olacaq. Forum müddətində Mədəniyyət və Yaradıcı Sənayelər Sərgisi də təşkil olunur. Məqsəd mədəniyyət və yaradıcı sənayelərin əhatə etdiyi sahələri əyani şəkildə göstərməkdir".

***davamı səh. 2-də***

## İrs, memarlıq və təhsil bir arada

ADA Universiteti İtaliya-Azərbaycan Universiteti layihəsi çərçivəsində Şəkidə Milan Politexnik Universiteti ilə birgə Dizayn və memarlıq fakültəsinin açılışını edib.

Fakültənin akademik portfelinə memarlıq, şəhərsalma, o cümlədən interyer dizaynı, kommunikasiya dizaynı, məhsul dizaynı və landşaft dizaynı sahələrində bakalavr, magistr və sertifikat proqramları daxildir.

***səh. 3***

## Mədəniyyətimiz Fransada festivallarda təqdim olunub



Fransanın La Roşel (La Rochelle) şəhərindəki Assosiasiyalar Birliyinin təşkilatçılığı ilə keçirilən "Les Papilles du monde" ("Dünyanın dad reseptləri") festivalında ölkəmizin səfirliyi də iştirak edib.

Müxtəlif ölkələrin səfirliklərinin, eləcə də Fransada yaşayan xalqların nümayəndələrinin iştirakı ilə keçirilən festivalda Azərbaycan stendi də maraqla qarşılanıb.

Stenddə Heydər Əliyev Fondunun ölkəmizin tarixi, mədəniyyəti, sənətkarlığı və mətbəxinə dair fransız dilində nəşr etdirdiyi kitablar nümayiş olunub. Milli musiqi alətlərini əks etdirən suvenirlər, milli ornamentlə işlənmiş armudu stəkanlar və nar budaqları ilə bəzədilmiş stendimizin ziyarətçiləri paxlava, şəkərbura, badambura kimi milli şirniyyatlara, milli mətbəximizin qutab, plov kimi dadlı təamlarına, Azərbaycan şərabına qonaq ediliblər.

***davamı səh. 8-də***

## Ölkəmizdə ilk dəfə Mədəni İrs Forumu keçiriləcək

18-20 dekabr tarixlərində Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə ölkəmizdə ilk dəfə Mədəni İrs Forumu keçiriləcək. Forum Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən tədbirlər çərçivəsində təşkil olunacaq.




Forumda tarixçi, arxeoloq, rəssam, memar, heykəltaraş, sənətkar və digər sahələr üzrə mütəxəssislərin iştirakı ilə mədəniyyətimizin və milli irsimizin yaşadılması, inkişafı və təbliği, mövcud vəziyyət, maddi və qeyri-maddi irsimizə, təsviri və tətbiqi sənətə, tarixi abidələrə dövlət dəstəyi və digər məsələlərlə bağlı müzakirələr aparılacaq.

"Azərbaycanın daşınmaz tarixi-mədəni irsinin tədqiqi və mühafizəsi problemləri", "Postkonflikt dövründə Azərbaycanın tarixi-mədəni və təbii irsinin qorunması məsələləri", "Azərbaycanda daşınar mədəni irs: muzey işi və müasir çağırışlar", "Qeyri-maddi mədəni irsin mühafizəsi və müasir çağırışlar", "Təsviri sənət və müasir çağırışlar", "Mədəni irs və müasir memarlıq-şəhəralma prinsipləri" mövzuları üzrə panellər təşkil olunacaq.

Forumda iştirak etmək istəyənlər 10 dekabr tarixinədək onlayn müraciət forması (https://culture.az/medeniirsforumu) ilə qeydiyyatdan keçə bilərlər.

Qeyd edək ki, bu, cari ildə teatr, kino, Azərbaycan dili və ədəbiyyatı, musiqi və hazırda davam edən (28-30 noyabr) yaradıcı sənaye forumlarından sonra keçiriləcək növbəti forumdur.

## Təsviri sənətimizin dünyaca məşhur nümayəndəsi

29 noyabr təsviri sənətimizin dünyaca məşhur nümayəndəsi, Azərbaycanın, keçmiş SSRİ-nin və Rusiyanın Xalq rəssamı Tahir Salahovun (1928-2021) anadan olmasının 95-ci ildönümüdür.



Tahir Salahov sənət təhsilini əvvəlcə Əzim Əzimzadə adına Azərbaycan Rəssamlıq Məktəbində, sonra V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda alıb. 1963–1974-cü illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunda, 1975-ci ildən Moskva Dövlət Rəssamlıq İnstitutunda pedaqoji fəaliyyət göstərib, 1984–1992-ci illərdə həmin institutda kafedra müdiri olub.

Ötən əsrin 60-cı illərinin əvvəllərində Azərbaycanda özünəməxsus rəngkarlıq məktəbinin formalaşmasında Tahir Salahovun müstəsna xidmətləri var. "Sərt üslub" adlandırılan istiqamətin liderlərindən biri olan sənətkarın əsərlərində yaradıcı əməyin romantikası, mənəvi gözəllik, eləcə də yüksək amallı insanın daxili aləmi rənglərin incə çalarları ilə lakonik ifadəsini tapıb. Rəssam tariximizin və mədəniyyətimizin unudulmaz şəxsiyyətlərinin portretlərinin geniş qalereyasını yaradıb. Eyni zamanda teatr-dekorasiya sənəti sahəsində uğurlu fəaliyyət göstərib. Onun dünya muzeylərini, məşhur qalereyaları bəzəyən və şəxsi kolleksiyalarda saxlanılan əsərlərinin, hər biri hadisəyə çevrilən fərdi sərgilərinin Azərbaycan mədəniyyətinin təbliğində xüsusi əhəmiyyəti olub.

Tahir Salahov SSRİ Dövlət mükafatına, Azərbaycanın və Rusiyanın Dövlət mükafatlarına, Sosialist Əməyi Qəhrəmanı adına, çoxsaylı beynəlxalq mükafatlara layiq görülüb. Azərbaycanın ən ali təltifi olan "Heydər Əliyev" ordeni, eləcə də "İstiqlal" və 1-ci dərəcəli "Əmək" ordenləri ilə təltif edilməsi doğma Vətənində onun sənətinə və şəxsiyyətinə dərin ehtiramın təzahürüdür.

Rəssam 2021-ci il mayın 21-də, ömrünün 93-cü ilində vəfat edib.

## Paytaxtdakı xalq teatrlarının festivalı keçirilib



***səh. 3***



## "Zəfərin rəngi" – müsabiqənin yekun sərgisi

***səh. 5***

# Xankəndidə Qarabağ Universiteti yaradılır

35 il aradan sonra Xankəndi şəhərində Azərbaycanın ali məktəbi fəaliyyətə başlayacaq. Prezident İlham Əliyev noyabrın 28-də Xankəndidə Qarabağ Universitetinin yaradılması haqqında sərəncam imzalayıb.

Sərəncamda bildirilir ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, dayanıqlı inkişafı və həmin ərazilərdə yüksək həyat səviyyəsinin təminatı üçün genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir.

Qeyd olunur ki, Qarabağ regionunda ilk ali təhsil ocağı 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi qurulub, 1973-cü ildən 1988-ci ilədək ali təhsil müəssisəsi kimi fəaliyyət göstərib və ərazilərimizin işğalı dövründə fəaliyyətini dayandırıb.

İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də əmək bazarının tələbləri regionda yüksəkixtisaslı kadrların hazırlığını həyata keçirən ali təhsil müəssisəsinin təşkili zərurətini meydana çıxarıb.

Sərəncamla regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi və tarixən mövcud olmuş təhsil ənənələrinin yaşadılması məqsədilə Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində "Qarabağ Universiteti" publik hüquqi şəxs (bundan sonra – Universitet) yaradılır.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə iki ay müddətində universitetin nizamnaməsini təsdiq edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək, universitetin fəaliyyətinin maliyyələşdirilməsi ilə bağlı zəruri tədbirlər görmək, eləcə də Xankəndi şəhərində torpaq sahəsi, tədris və yataqxana binaları, idman meydançası və digər infrastruktur obyektləri ilə təminatı məsələlərini həll etmək tapşırılıb.

# Bakı-Vaşinqton münasibətlərində soyuqluq aradan qalxır?

## Yüksək səviyyəli rəsmilərin səfərləri bərpa olunur

Noyabrın 27-də ABŞ dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı Prezident İlham Əliyev qeyd edib ki, ABŞ tərəfindən Azərbaycanla bağlı son bəyanatlar və atılan addımlar Azərbaycan-ABŞ münasibətlərinə ciddi zərər vurub.

Dövlətimizin başçısı 2023-cü il noyabrın 15-də ABŞ dövlət katibinin köməkçisi Ceyms O'Braynın Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinin Avropa üzrə alt komitəsinin dinləmələrində ölkəmizlə bağlı səsləndirdiyi fikirlərin qərəzli olduğunu, həqiqəti əks etdirmədiyini və Azərbaycan tərəfindən rədd edildiyini bildirib.

Azərbaycan tərəfinin ABŞ-nin Azərbaycana münasibətdə yüksək səviyyəli ikitərəfli görüş və təmasları təxirə salması və "ikitərəfli münasibətlərimizdə "əvvəlki kimi" ola bilməz" bəyanatını nəzərə aldığı, bunu adekvat cavablandırdığı vurğulanıb.

Prezident İlham Əliyev Azərbaycan Xarici İşlər Nazirliyinin noyabrın 16-da bununla əlaqədar açıqlama verdiyini, Azərbaycan tərəfinin də öz növbəsində ABŞ-dən olan yüksək səviyyəli səfərləri ləğv etdiyini xatırladıb.

Dövlət katibi Blinken münasibətlərin normallaşdırılması məqsədilə dekabrda köməkçisi Ceyms O'Braynın Azərbaycana səfərinə icazə verilməsini xahiş edib. Prezident İlham Əliyev həmin təkliflə bir şərtlə razılaşıb ki, bu səfərdən sonra Azərbaycanın yüksək səviyyəli rəsmilərinin ABŞ-yə səfərlərinə qoyulan əsassız qadağa aradan qaldırılsın. Dövlət katibi Blinken bunu qəbul edib.

Bununla yanaşı, qeyd olunub ki, sülh müqaviləsinin mətni ilə bağlı Azərbaycan tərəfinin 2023-cü il sentyabrın 11-də Ermənistana təqdim etdiyi təkliflər Ermənistan tərəfindən noyabrın 21-də cavablandırılıb. Beləliklə, Ermənistan öz cavabını 70 gün gecikdirib. Yetmiş günlük gecikdirmə bir daha nümayiş etdirir ki, Ermənistan sülh müqaviləsinin mətnindən danışıqlar prosesini uzatmaq üçün bəhanə kimi istifadə edir.

Danışıqlar zamanı tərəflər həmçinin noyabrın 30-da Azərbaycan-Ermənistan şərti sərhədində keçiriləcək dövlət sərhədinin delimitasiyası üzrə komissiyaların növbəti görüşünə dair fikir mübadiləsi aparıblar.

# Heydər Əliyev Sarayına direktor təyin olunub

Paytaxtın baş səhnəsi – Heydər Əliyev Sarayının direktoru vəzifəsinə təyinat olub. Mədəniyyət naziri Adil Kərimlinin əmri ilə bu vəzifəyə İlham Qasımov təyin edilib.

İlham Zakir oğlu Qasımov 1977-ci ildə anadan olub. 1998-ci ildə Azərbaycan Texniki Universitetini bitirib. 1992–1996-cı illərdə "Şən və Hazırcavablar Klubu"nun (ŞHK) üzvü olub. 1999–2000-ci illərdə ABA TV-də layihə müəllifi, rejissor və aparıcı vəzifələrində çalışıb. 2000-ci ildən etibarən müxtəlif televiziya layihələri, teatr, konsert proqramları və reklam filmləri layihələrini həyata keçirib.

# Kiyevdə Heydər Əliyevin 100 illiyinə həsr olunan poçt markasının təqdimatı

Noyabrın 28-də Kiyevdə Azərbaycanın Ukraynadakı Səfirliyinin dəstəyi ilə Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan poçt markası dəstinin təqdimatı keçirilib.




Tədbirdə Ukrayna Ali Radası sədrinin müavini Olena Kondratyuk, deputatlar, ictimaiyyət və Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.

Ölkəmizin Ukraynadakı səfiri Seymur Mərdəliyev bildirib ki, poçt markası Azərbaycan ilə Ukrayna arasında möhkəm dostluq münasibətləri yaradan Heydər Əliyevin xatirəsinə ehtiramın nümunəsidir.

Olena Kondratyuk diqqətə çatdırıb ki, Heydər Əliyev iki ölkə arasında dostluq və əməkdaşlığın inkişafındakı xidmətlərinə görə 1997-ci ildə Ukraynanın ali mükafatı – "Yaroslav Mudrı" ordeni ilə təltif edilib.

"Ukrpoçta"nın Kiyev şəhər departamentinin rəhbəri Olesa Kopçuk poçt markası dəsti haqqında məlumat verib.

Tədbirdə Heydər Əliyev haqqında sənədli film nümayiş etdirilib. Poçt markası dəstinin möhürlənməsi mərasimi olub.

Poçt markası dəsti "Azərpoçt" tərəfindən Azərbaycanın Ukraynadakı Səfirliyi ilə əməkdaşlıq əsasında və Ukraynanın milli poçt operatoru "Ukrpoçta" şirkətinin sifarişi ilə hazırlanıb. Dəst 2000 markadan ibarət məhdud tirajla buraxılıb.

# Mədəniyyət və yaradıcı sənayelər bir-birini necə zənginləşdirə bilər?






*əvvəli səh. 1-də*

Diqqətə çatdırıldı ki, forumda 7 paneli əhatə edən müzakirələr olacaq, 3 dəyirmi masa keçiriləcək. Həmçinin həftə çərçivəsində "Yaradıcı müzakirələr" ("Creative Talks") layihəsi təşkil ediləcək. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə 10 yaradıcı klaster üzrə Quba, Bakı, Sumqayıt, Lənkəran, Naxçıvan, Gəncə, Mingəçevir, Şəki, Şamaxı və Şuşada ümumilikdə 100 tədbirin keçirilməsi nəzərdə tutulur.

Nazir çıxışının sonunda forumun işinə uğurlar arzuladı.

İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev ölkə iqtisadiyyatı üçün yeni yanaşmalardan hesab edilən mədəniyyət və yaradıcı sənayelərə həsr olunan forumun əhəmiyyətini yüksək qiymətləndirdi, layihənin təşkilində əməyi keçənlərə təşəkkürünü bildirdi.

Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Fazil Mustafa Mədəniyyət Nazirliyi tərəfindən il ərzində mədəniyyətin müxtəlif sahələri üzrə keçirilən forumların əhəmiyyətindən danışdı. Dedi ki, bu cür forumlar müvafiq sahələrdə maraqlı tərəflər üçün bir yol xəritəsi müəyyən edir.

Çıxışlardan sonra forum işini panel sessiyalarla davam etdirdi.

## Mədəniyyət və yaradıcı sənayelər ekosisteminin inkişafı: beynəlxalq perspektiv

Mədəniyyət və Yaradıcı Sənayelər Forumu noyabrın 28-də açılış mərasimindən sonra işini "Mədəniyyət və yaradıcı sənayelər ekosisteminin inkişafı: beynəlxalq perspektiv" adlı panel sessiya ilə davam etdirdi.




Mədəniyyət nazirinin müşaviri Cahangir Səlimxanovun moderatorluğu ilə gerçəkləşən paneldə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun yeni prezidenti Aktotu Raimkulova quruma rəhbər təyin edilməsini fəaliyyətinə göstərilən yüksək diqqət kimi dəyərləndirdi və Azərbaycan dövlətinə minnətdarlığını bildirdi. Fondun fəaliyyəti barədə danışan A.Raimkulova Türk dünyasının maddi-mənəvi irsinin və tarixinin qorunması istiqamətində mühüm işlərin görüldüyünü bildirdi.

Fondun prezidenti müvafiq sahədə fikir və ideya mübadiləsi aparılmasında, həmçinin gənc istedadların üzə çıxarılması baxımından forumu yüksək qiymətləndirdi.

"British Council" təşkilatının yerli ofisinin direktoru Nərgiz Hacıyeva qurumun "Creative Spark: ali təhsil müəssisəsi proqramı" adlı layihəsinin uğurla həyata keçirildiyini vurğuladı. Bildirdi ki, "Creative Spark" Birləşmiş Krallığın dəstəyi ilə ümumilikdə yeddi ölkədə biznes bacarıqlarını və yaradıcı iqtisadiyyatı inkişaf etdirmək məqsədilə universitetlərarası və institusional əməkdaşlığı beynəlxalq səviyyədə dəstəkləmək üçün nəzərdə tutulan beşillik təşəbbüsdür.

Art market üzrə litvalı mütəxəssis, "artXchange Global"ın icraçı direktoru Ornela Ramasauskaite yaradıcı və mədəni sənayenin yalnız gözəllik deyil, həmçinin iqtisadiyyat olduğunu dedi. O, Azərbaycanı Qafqazın mədəniyyət paytaxtı kimi təqdim etmənin yolları, cəmiyyətin kreativ sənayeyə baxışını dəyişmək və investisiya cəlb etməklə bağlı düşüncələrini bölüşdü. Dedi ki, Azərbaycanda yaradıcı sənayenin çoxsahəli fəaliyyət istiqamətləri var və bu sahənin inkişafı üçün ilk növbədə prioritetlər müəyyənləşdirilməlidir: mədəniyyət sahəsinin idarə edilməsi, mədəni marketinq təhsili, maarifləndirmə işinin gücləndirilməsi, eləcə də bu sahədə təhsilə dövlət dəstəyi.

Qırğızıstan Yaradıcı Sənayelər Assosiasiyasının sədri Daniar Amanaliyev ölkəsində fəaliyyət göstərən Yaradıcı sənaye parkı haqqında məlumat verdi. Bildirdi ki, kreativ iqtisadiyyat son illərdə dünya iqtisadiyyatının ən dinamik inkişaf edən sektorlarından biridir. D.Amanaliyev dedi ki, Qazaxıstan, Özbəkistan və Qırğızıstanın yaradıcı sənaye üzrə şəbəkəsi yaradılıb. Artıq şəbəkəyə üç mindən çox şirkət qoşulub. Qarşılıqlı təcrübə mübadiləsi öz müsbət nəticəsini verib, bu sahədə müvafiq yol xəritəsi də hazırlanıb. Qırğızıstanda ən sürətli klasterin İT sektoru olduğunu bildirən mütəxəssis bu sahədə gəlirlərin hər il təxminən iki dəfə artdığını diqqətə çatdırdı.

Beynəlxalq biznes və texnologiyalar üzrə israilli ekspert Tal Catran yaradıcı sənayenin inkişafı üçün maliyyə və bu sahədə bacarıqlı mütəxəssislərin vacib amil olduğunu dedi.

Panelin sonunda yaradıcı sənayenin inkişaf etdirilməsi, bu sahədə biznesin dəstəklənməsi, yaradıcı şəxslərin və biznes subyektlərinin təşkilatlanması barədə fikir mübadiləsi aparıldı.

## İxrac potensialı və beynəlxalq əməkdaşlıq

Mədəniyyət və Yaradıcı Sənayelər Forumunun növbəti paneli "Mədəniyyət və yaradıcı sənayelər: ixrac potensialı, beynəlxalq əməkdaşlıq" mövzusuna həsr olunmuşdu.

Mədəniyyət Nazirliyi Beynəlxalq təşkilatlarla iş sektorunun müdiri Araz Bağırlının moderatorluğu ilə reallaşan paneldə çıxış edən Türkiyə Yaradıcı Sənayelər Şurasının rəhbəri Sertaç Eray Ersay yaradıcılıq sahəsinin iqtisadiyyata təsiri və bu sahəyə verilə biləcək töhfələrlə bağlı fikirlərini bölüşdü. O, bu sahənin inkişafının insan şüuru ilə bilavasitə bağlı olduğunu diqqətə çatdırdı. Qeyd etdi ki, yaradıcı məhsul insan faktoruna əsaslanır. İnsanın bacarığını iqtisadi potensiala çevirərək ondan istifadə etmək hazırda ən vacib məsələlərdən biridir.

İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) icraçı direktorunun müşaviri Tural Hacılı dedi ki, yaradıcı sənayelərin ixracı məsələsində AZPROMO olaraq hazırda xalçaların təşviqi istiqamətində layihə üzərində çalışılır: "Ən vacib məqamlardan biri ixracın təşkili sahəsində maarifləndirmədir. Biz bununla əlaqədar maarifləndirmə proqramları yaratmalıyıq. Çünki yaradıcı insanlara bu istiqamətdə kömək edilməlidir".

Rəqəmsal transformasiya üzrə ekspert Fəxri Eminov Azərbaycanda yaradıcı sənayenin 2010-cu ildən bəri inkişaf etdiyini söylədi. O, innovativ biznes modelinin yaranmasının təbii bir prosesə çevrildiyini diqqətə çatdırdı. Bildirdi ki, hüquqi baza, maliyyə və innovativ klasterlərin formalaşması əsas məsələdir.




Müvafiq istiqamətlərdə treninqlərin keçirilməsi, investorların axtarışı bu işdə kömək ola bilər.

Qırğızıstanın "Prima" ictimai fondunun təsisçisi və rəhbəri Viktoriya Yurtayeva yaradıcısı olduğu klassik musiqi festivalı – "TENGRİ Music fest" haqqında danışdı, layihənin ölkənin kreativ sənayesinə təsirindən söz açdı. O, yaradıcılıq sənayesinin inkişafı üçün festivalların, forumların, sərgilərin, yarmarkaların və digər tədbirlərin əhəmiyyətini vurğuladı.

Panelin sonunda yaradıcı sənayenin müasir biznes çağırışları, yaradıcı şəxslərin sahibkarlıq fəaliyyəti ilə bağlı bilik və bacarıqlarının artırılması, sektorun problemləri və inkişafı kimi məsələlər müzakirə edildi, təkliflər səsləndirildi, suallar cavablandırıldı.

## Qlobal incəsənət bazarlarında nə var?




Forumun birinci gününün sonuncu panelində "Qlobal incəsənət bazarları: yerli incəsənət nümayəndələri üçün mövcud trendlər və imkanlar" mövzusu müzakirəyə çıxarılmışdı.

İncəsənət layihələri üzrə kurator Emin Məmmədovun moderatorluğu ilə keçirilən paneldə YARAT Müasir İncəsənət Məkanının bədii rəhbəri Fərəh Ələkbərli təmsil etdiyi qurumun rəssamlıq sənəti sahəsində həyata keçirdiyi layihələr barədə məlumat verdi.

"Ta(r)dino6" incəsənət platformasının həmtəsisçisi, mədəniyyət meneceri Əsli Səmədova (Azərbaycan, İtaliya) Azərbaycan rəssamlıq məktəbi və incəsənət nümunələrinin dünyada təbliği istiqamətində həyata keçirdikləri layihələr haqqında söz açdı.

Rəssam Faiq Əhməd, sənətşünas Mehparə Abbasova çıxışlarında sözügedən sahədə təhsilin səviyyəsi və elmi biliklərin pərakəndəliyindən bəhs etdilər. Bildirildi ki, bölgələrdə bu sahəyə diqqət və marağı artırmaq üçün təbliğat aparılmalıdır. Müxtəlif təşkilatlar qrant ayırsalar da, regionlarda sənət insanları və qalereyalar bu proseslərdən xəbərsiz olurlar.

Panel müzakirədə Azərbaycan rəssamlarının beynəlxalq sərgilərdə iştirakı ilə bağlı məsələ də diqqət mərkəzində oldu. Moderator Emin Məmmədov bu kontekstdə Heydər Əliyev Fondu və "Baku" jurnalının birgə təşkilatçılığı ilə keçirilən "Fly to Baku" müasir Azərbaycan incəsənəti sərgisini nümunə çəkdi. Bildirdi ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə reallaşan sərgi bir sıra müəlliflərin beynəlxalq aləmdə tanınmasına vəsilə olub. Sərgi Azərbaycanın müasir incəsənətini 6 ölkənin paytaxtında – London, Paris, Berlin, Roma, Vyana və Moskvada nümayiş etdirmək üçün unikal imkan yaradıb. Layihədə yaşlı və orta nəslə mənsub 21 rəssamın 100-dən artıq əsəri nümayiş etdirilib.

Paneli sessiyada yerli incəsənət nümayəndələrinin dünya bazarına çıxışı və təbliği mövzusunda müzakirələr aparıldı, suallar cavablandırıldı.

Mədəniyyət və Yaradıcı Sənayelər Forumu noyabrın 29-da panel sessiyalar və dəyirmi masa ilə işini davam etdirəcək.

Forumdan yazdılar:

**Nurəddin Məmmədli**
**Lalə Azəri**
**Foto: Həbib Hüseynov**

# İrs, memarlıq və təhsil bir arada

## ADA Universiteti italiyalı mütəxəssislərlə birgə Şəkidə Dizayn və memarlıq fakültəsi açır

Noyabrın 27-də ADA Universiteti İtaliya-Azərbaycan Universiteti layihəsi çərçivəsində Şəkidə Milan Politexnik Universiteti ilə birgə Dizayn və memarlıq fakültəsinin açılışını edib.

Tədbirdə rəsmilər, dövlət, özəl və akademik qurumların təmsilçiləri, rayon ictimaiyyətinin nümayəndələri və Milan Politexnik Universitetinin heyəti iştirak edib.

Mərasim görkəmli Azərbaycan maarifçisi Firidun bəy Köçərlinin ömür-gün yoldaşı Badisəba xanımın Şəkidə çalışdığı keçmiş uşaq evində – Zülfüqarovların malikanəsində keçirilib. Məsləkcə müəllim olan Badisəba xanım yüzlərlə kimsəsiz uşağın tərbiyəsində göstərdiyi xidmətlərə görə Şəkidə "Badisəba ana" adı ilə tanınıb.

Tədbiri Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov açaraq iştirakçıları salamlayıb.

ADA Universitetinin Vaşinqton Mərkəzinin prezidenti Qalib Məmməd və Milan Politexnik Universitetinin professoru Silviya Ferraris ADA Universitetinin regionallaşma strategiyası və yeni Dizayn və memarlıq fakültəsinin gələcək planları haqqında təqdimatla çıxış ediblər.





Sonra ADA Universitetinin rektoru Hafiz Paşayev, elm və təhsil naziri Emin Əmrullayev və mədəniyyət naziri Adil Kərimlinin iştirakı ilə panel müzakirəsi olub. Paneldə Azərbaycan Turizm Agentliyinin sədri Fuad Nağıyev, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva da iştirak ediblər.

Rektor Hafiz Paşayev bildirib: "Bu, bizim üçün əlamətdar gündür. Bu gün təkcə yeni fakültənin açılışı ilə bağlı deyil, bu gün həm də icma quruculuğuna göstərdiyimiz xidmətlə bağlı gündür. Bu gün irs, memarlıq və təhsildən ibarət trionun simfoniyasından bəhs edir. ADA Universiteti vaxtilə kampusunu Bakı şəhərində Azərbaycan irsi və mədəniyyətindən ilhamlanaraq tikib. Beynəlxalq əməkdaşlıq əsasında qurulan bu yeni fakültənin Şəkidə, tarixi Zülfüqarovların malikanəsində istifadəyə verilməsi ilə biz irsin dirçəldilməsi istiqamətində yeni bir səhifə açırıq. Bu, bizim ölkəyə göstərdiyimiz xidmətin təcəssümüdür".

Qeyd olunub ki, fakültənin açılması beynəlxalq əməkdaşlığın və Milan Politexnik Universiteti tərəfindən aparılan ətraflı ilkin araşdırmanın nəticəsidir. Fakültənin akademik proqramları şəhər quruculuğunun icma quruculuğu ilə bərabər səviyyədə olan əhəmiyyətini ön planda tutaraq ölkədə memarlıq, şəhərsalma və dizayn sahəsinə yeni baxış gətirəcək. Fakültənin akademik portfelinə memarlıq, şəhərsalma, o cümlədən interyer dizaynı, kommunikasiya dizaynı, məhsul dizaynı və landşaft dizaynı sahələrində bakalavr, magistr və sertifikat proqramları daxildir.

Bildirilib ki, bu fakültənin regionda fəaliyyətə başlaması həm də Qazax-Şəki-Gəncə trayektoriyasını özündə əks etdirən ADA Universitetinin regionlaşma strategiyasının tərkib hissəsidir. İtaliya memarlığının konservasiyası və modernləşdirilməsi sahəsində geniş təcrübəsindən bəhrələnən və ADA Universitetinin tarixi binaları bərpa etmək və onları təhsil institutuna çevirmək missiyasını özündə birləşdirən fakültə təhsil sahəsində miras dirçəlişinin çırağı və beynəlxalq əməkdaşlığın simvolu olacaq.

"Firidun bəy Köçərlinin həyat yoldaşı Badisəba xanım məhz bu binada yetim uşaqlara yiyəlik edib, müəllim, direktor olub. Ona görə dedik ki, bizim İtaliya-Azərbaycan Universiteti layihəsi çərçivəsində Arxitektura, memarlıq və dizayn fakültəsinin bir hissəsini burada yaradaq. Abidələrin bərpası sahəsində yeni mütəxəssislər yetişdirək. Ona görə də biz buradayıq. Şəkinin tarixi memarlıq üslubunu unutmaq olmaz, bu üslub gərək yaşasın" – ADA Universitetinin rektoru Hafiz Paşayev bu sözləri jurnalistlərə açıqlamasında deyib.

"Bildiyimə görə, ADA Universiteti, eyni zamanda Şəkidə özünün kampusunu inşa edəcək. Burada bir neçə ixtisas üzrə memarların, bərpaçıların hazırlanması kimi analoji proqramlar üzrə tədris prosesi həyata keçiriləcək. Bu proqramların reallaşmasında biz də öz iştirakımızı təmin edəcəyik" – bunu isə Milan Politexnik Universitetinin professoru Silviya Ferraris jurnalistlərə müsahibəsində söyləyib.

# Poeziya və musiqi mədəniyyətlərarası səsləşmənin "İpək yolu" kimi

"2023-cü il xalqımızın yaddaşında "Heydər Əliyev İli" kimi qalacaq. Ulu öndərin 100 illik yubileyi ölkə miqyasında və onun hüdudlarından kənarda qeyd edilir. Heydər Əliyev Azərbaycan ədəbiyyatını, mədəniyyətini, incəsənətini, tarixini çox sevən bir insan idi. Onun Azərbaycana rəhbərlik etdiyi illərdə bir çox görkəmli şəxsiyyətlərin yubileyləri qeyd olunub. Ulu öndər böyük şəxsiyyətlərin yubileylərinin ölkəmizdə və xaricdə qeyd olunmasına həm də Azərbaycanı daha artıq tanıtmaq, ölkəmizin böyüklüyünü, mədəniyyətini daha bariz şəkildə nümayiş etdirmək imkanı kimi baxırdı".



Bu fikirləri noyabrın 28-də Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində "Klassik Şərq və Azərbaycan poeziyası və musiqisi mədəniyyətlərarası səsləşmənin "İpək yolu" kimi" mövzusunda beynəlxalq konfransın açılış mərasimində muzeyin baş direktoru akademik Rafael Hüseynov söyləyib.

Beynəlxalq konfransın Azərbaycanın üç böyük şəxsiyyətinin – Səfiəddin Urməvinin 825, Əbdülqadir Marağayinin 670, Mir Möhsün Nəvvabın 190 illik yubileylərinə həsr olunduğunu söyləyən Rafael Hüseynov bildirib ki, onların yaradıcılıqları, qoyduqları irs bu gün də yaşayır və gələcək üçün də əhəmiyyətini saxlamaqdadır. Səfiəddin Urməvi XIII əsrdə ərəb dilində musiqişünaslıq risalələri yaradıb. Həmin əsərlər bir çox Avropa dillərinə tərcümə edilib, yayılıb, tədqiq olunub. Azərbaycanda Səfiəddin Urməvi yaradıcılığına ilk dəfə elmi istiqamətdə nəzər yetirən böyük musiqişünasımız Əfrasiyab Bədəlbəyli olub...".

"Şərq musiqişünaslığının təməlində dayanan türk alimləridir" deyən akademik Əbunəsr Fərabinin, Səfiəddin Urməvinin və Əbdülqadir Marağayinin də mənşəyi etibarilə türk olduqlarını qeyd edib. Vurğulayıb ki, məhz onlar nəzəri təməlləri yaradıb və bu təməllərin üzərində böyük irs meydana gəlib.

Tədbirdə Əbdülqadir Marağayinin "Naxış bəstə" əsəri səsləndirilib.

Sonra akademik Rafael Hüseynovun "Müsəlman Şərqi ədəbiyyatı və musiqişünaslığında Azərbaycan məktəbləri" mövzusunda məruzəsi dinlənilib.

Konfransın plenar iclasında Bakı Dövlət Universitetinin dosenti Əsmətxanım Məmmədova "Səs təqlidi leksemlər və idiofonlar söz yaradıcılığı müstəvisində", professor Şəfəq Əlibəyli "Məhəmməd Füzuli nəzmində musiqi alətləri akustik obrazlarının funksional-stilistik xüsusiyyətləri", professor Kamil Allahyarov "İslamda musiqinin qadağan olunma səbəblərinə dair" və filologiya üzrə fəlsəfə doktoru Gülnar Əqiq "Əbdülqadir Marağayi əsərlərinin müasir musiqişünaslıqda tətbiqi" mövzusunda məruzələrlə çıxış ediblər.

Konfrans işini bölmə iclası ilə davam etdirib.

# "İncə sənət" – musiqi, rəssamlıq, ədəbiyyat

Noyabrın 25-də Beynəlxalq Muğam Mərkəzində (BMM) "İncə sənət" adlı proqram təqdim edildi. Poeziya, nəsr, musiqi və rəssamlığı bir araya gətirən tədbirdə xanım sənətçilər öz yaradıcılıq nümunələrini, sənət hisslərini tamaşaçılarla bölüşdülər.



Əvvəlcə qonaqlar BMM-in foyesində rəssam Mehriban Şəmsəddinskayanın əsərləri ilə tanış oldular. Baxdıqca insana zövq verən tablolar istedadlı rəssamın iç dünyasının rəngarəngliyini əks etdirirdi.

Sonra Moskva Dövlət Konservatoriyasının məzunu Nazxanım Dadaşova (piano), Əməkdar artist Ceyla Seyidova (skripka), yazar, YARAT Müasir İncəsənət Məkanının sosial və maarifləndirici proqramlar şöbəsinin rəhbəri Ülviyyə Axundova və sopranolar Nigar Cəfərova, Elnarə Məmmədova, Gülsüm Xəlilova Avropa və Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət musiqi nömrələrini təqdim etdilər.

Tamaşaçılara öz sənət dünyalarından pay verən incə ruhlu xanımların çıxışları alqışlarla qarşılandı.

**Lalə Azəri**

# Filarmoniyada "Qarabağ inciləri"



M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında "Qarabağ inciləri" adlı konsert olub.

Filarmoniyadan bildirilib ki, konsertdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri (bədii rəhbər və baş dirijor Əməkdar artist Fuad İbrahimov) çıxış edib. Orkestri dirijor Mustafa Mehmandarov idarə edib.

Gecədə bəstəkar İlyas Mirzəyevin əsərləri səslənib. Solistlər qismində bəstəkarın özü (pianoda), eləcə də Olgu Kızılay (violin, Türkiyə) və Nuran Bəkir (balaban) çıxış ediblər. Onu da qeyd edək ki, konsert proqramı İlyas Mirzəyevin 60 illik yubileyi münasibətilə tərtib edilib.

# Musiqi məktəbində Musa Mirzəyevin 90 illiyi qeyd olunub



Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin A.Məlikov adına 11 nömrəli onbirillik Musiqi məktəbində görkəmli bəstəkar, Xalq artisti Musa Mirzəyevin (1933- 2016) 90 illiyinə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə bəstəkarın həyat və yaradıcılığından, musiqi mədəniyyətimizin inkişafına verdiyi töhfələrdən bəhs edilib. Qeyd olunub ki, Azərbaycan bəstəkarlıq məktəbinin seçilən nümayəndələrindən olan Musa Mirzəyev yaratdığı rəngarəng əsərləri ilə milli musiqi salnaməmizi zənginləşdirib. O, pedaqoq kimi yeni musiqiçilər nəslinin yetişdirilməsinə də öz töhfəsini verib.

Sonra şagirdlərin ifasında bəstəkarın əsərləri səsləndirilib.

# Bakıdan kuklalara düyü doldurub aparıblar

## "Peterburq teatr mövsümü"nün qastrolu başa çatıb

21-26 noyabr tarixlərində Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının səhnəsində gerçəkləşən "Peterburq teatr mövsümü" başa çatıb. Sankt-Peterburq Mədəniyyət Komitəsinin və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşan layihənin son günü qonaq kollektivlərdən "Kukla formatı" teatrı (KUKFO) "Al çiçək" nağıl-tamaşasını (iki seansda) təqdim edib.

Rejissoru və quruluşçu rəssamı Anna Viktorova olan tamaşada nağılçı Pelaqeya rolunu aktrisa Olqa Donets oynayıb. Tamaşaçılar Sergey Aksakovun məşhur nağılını balaqan – kukla formatında maraqla qarşılayıblar.

Nağılın folklor interaktiv variantı 2014-cü ildə KUKFO teatrı tərəfindən səhnələşdirilib və o vaxtdan bəri Sankt-Peterburqdan kənarda da dəfələrlə nümayiş etdirilib. 2015-ci ildə tamaşadakı işinə görə Olqa Donets Banqkokda keçirilən karnavalda "Ən yaxşı aktrisa" adına layiq görülüb.

Qeyd edək ki, tamaşada rus xalq üslubunda tikilmiş kuklalardan istifadə olunur. Nümayişdən əvvəl nağılçı Pelaqeya tamaşaçılara taxta, saman, parça kuklaları, amulet kuklaları və digər kuklaları da göstərib, onların təyinatı və simvolikası haqqında danışıb.

Tamaşadan sonra Olqa Donets təəssüratlarını AZƏRTAC ilə bölüşüb.

– Bizi teatrda çox gözəl qarşıladılar, doğma insanlar kimi. Bu, çox vacibdir. Çünki yeni bir yerə gələndə və heç nədən xəbərin olmayanda, düzgün hərəkət etmək çətindir. Burda isə bizə çox kömək edirdilər. Tamaşaçılardan da böyük rəğbət gördük. Bu da artistlər üçün ən xoş bir hissdir.

*– Qastrol üçün məhz bu nağılı nəyə görə seçmisiniz?*

– Çünki bu, hər şeydən əvvəl monotamaşadır. Dekorasiyalar asanlıqla iki çamadana yerləşir və onları istənilən yerə aparmaq olar. Biz bu tamaşanı dünyanın müxtəlif yerlərində oynamışıq, biz onu istənilən səhnədə və ya da küçədə oynaya bilərik – bu "Petruşka teatrı"na bənzəyir. Lakin bu tamaşanın eksklüzivi – onun kuklalarıdır. Çünki onlar xalqa aiddir və indi onların içində, yeri gəlmişkən, sizin Azərbaycan düyüsü var (gülür). Biz onu burada aldıq və kuklaları doldurduq.

*– Düyü hər dəfə yenilənməlidir?*

– Bəli, qastrollara gediriksə, kuklaları kiçik torbalar kimi nümayiş olunan ölkədə aldığımız yarmalarla yerindəcə doldururuq. İndi bu düyünü Peterburqa aparacağıq və onu orda yeyəcəyik (gülür).



*– Qastrollar zamanı Azərbaycan nağılları ilə tanış ola, yerli kukla teatrına gedə bildinizmi?*

– Təəssüf ki, proqram çox sıx oldu. Lakin biz şəhərin küçələrini gəzdik və sizin kukla teatrının afişalarını gördük. Bu mənə çox təsir etdi. Azərbaycan nağıllarının kuklaları çox maraqlıdır. Mən bu cür nağıl oxumamışam, lakin oxumaq istərdim. Düşünürəm ki, ola bilsin teatrımız üçün hətta Şərqə aid nəsə yaransın. Üstəlik, Azərbaycan artistləri bizi ziyarət etdilər və təcrübə mübadiləsi aparmaq imkanımız oldu. Mən bilirəm ki, sizin böyük kukla teatrınız var. Çox ümid edirəm ki, biz yenə gələcəyik və gələn dəfə Azərbaycan folklorunu tanımaq üçün daha çox vaxtımız olacaq.

# Paytaxtdakı xalq teatrlarının festivalı



Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyi münasibətilə Bakı şəhər xalq teatrları festivalı keçirilib.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə 22-23 noyabr tarixlərində gerçəkləşən festivalın əsas məqsədi xalq yaradıcılığının inkişafı, mədəniyyət müəssisələrində fəaliyyət göstərən xalq teatrlarına, eləcə də özfəaliyyət teatr kollektivlərinə gənc nəslin cəlb edilməsi, xalq teatrlarının və dram dərnəklərinin fəaliyyətini dövrün tələblərinə uyğun qurmaqdır.

Festivalın ilk seçim müsabiqəsi Ə.Əmirov adına Mədəniyyət Sarayında, növbəti mərhələsi isə H.Abbasov adına Mədəniyyət Mərkəzində keçirilib. Mədəniyyət müəssisələrində fəaliyyət göstərən xalq teatrlarının və özfəaliyyət dram dərnəklərinin tamaşaları nümayiş olunub.

Tamaşalar Xalq artisti Həmidə Ömərova, Əməkdar incəsənət xadimləri Əli Əmirli və Bəhram Osmanovdan ibarət münsiflər heyəti tərəfindən qiymətləndirilib.

Qeyd edək ki, festivalın bağlanışı və mükafatlandırma mərasimi noyabrın 29-da H.Abbasov adına Mədəniyyət Mərkəzində keçiriləcək.

# Heydər Əliyev zəkasının işığında

M.F.Axundzadə adına Şəki şəhər Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən S.Vurğun adına şəhər Folklor evinin əməkdaşları tərəfindən ağacəkmə aksiyası və iməcilik təşkil edilib. Folklor evinin yaxınlığında təşkil edilən aksiya zamanı ərazidəki tullantılar yığılıb, ağacların gövdəsi əhənglə ağardılıb.

***



Ulu öndər Heydər Əliyevin 100 illiyi münasibətilə Salyan rayonunda fəaliyyət göstərən mədəniyyət müəssisələri arasında intellektual yarış keçirilib. Beş turdan ibarət olan yarışda Salyan rayon MKS-nin "Sirlər xəzinəsi" komandası I, Yenikənd kənd Musiqi məktəbinin "Harmoniya" komandası II, Salyan Dövlət Kukla Teatrının "Turan" komandası isə III yeri qazanıb. Qalib komandalar diplom və hədiyyələrlə mükafatlandırılıb.

***



Cəbrayıl rayon Hacılı kənd klubunun əməkdaşları "Həmişəyaşar dahi insan" adlı tədbir keçiriblər. Qeyd olunub ki, Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyub. Ümummilli liderin siyasi fəaliyyəti Azərbaycan xalqının milli sərvəti, xəzinəsidir. Bundan sonra da neçə-neçə nəsillər bu məktəbdən bəhrələnərək Azərbaycanın davamlı inkişafına öz töhfəsini verəcək. Sonda məktəblilərin ifasında şeirlər səsləndirilib, kompozisiyalar təqdim olunub.

***

Ulu öndərin 100 illik yubileyi ilə əlaqədar Qazax rayon Heydər Əliyev Mərkəzi və Qazax Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə "Heydər Əliyev və müstəqil Azərbaycan" adlı rəsm müsabiqəsi keçirilib.

***



Yardımlı rayon Heydər Əliyev Mərkəzi və rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Ulu öndər Heydər Əliyevin Azərbaycan ədəbiyyatına verdiyi dəyər" adlı layihə çərçivəsində tədbir keçirilib. Çıxış edənlər "Heydər Əliyev İli" çərçivəsində keçirilən tədbirlərdən, həmçinin adıçəkilən layihənin mahiyyəti, Ulu öndərin Azərbaycan mədəniyyət və ədəbiyyatının inkişafına qayğısından söz açıblar. Tədbirdə həmçinin Milli Məclisin deputatı Xalq şairi Sabir Rüstəmxanlının Ulu öndərlə bağlı xatirələrinin yer aldığı "Ölüm son deyil" kitabı haqqında da məlumat verilib.

**Hazırladı: N.Məmmədli**

# Lənkəran teatrında "İki iyirmi üç arasında"

Lənkəran Dövlət Dram Teatrında "Heydər Əliyev İli"nə töhfə olaraq Qəşəm Nəcəfzadənin "İki iyirmi üç arasında" əsəri əsasında eyniadlı verbatim-kompozisiyaya quruluş verilir. Kompozisiyada Ulu öndərin həyat və fəaliyyəti, irsi təqdim olunur.




Dekabr ayında təqdim olunacaq nümunənin quruluşçu rejissoru Emil Əskərov, rəssamı Fuad Babazadə, musiqi tərtibatçısı Vüqar Fərəcov, qrafik dizayneri Fidan Hüseynzadə, videomühəndisi Şəhriyar Camalbəylidir. Səhnə əsərində Xalq artisti Qabil Quliyev, Əməkdar artistlər Sücəddin Mirzəyev, Zemfira Nəcəfova, aktyorlar Miraslan Ağayev, Allahverən Babayev, Şarud Mehdiyeva, Aynur Əhmədova, Qızılgül Quliyeva, Buludxan Buludov, Hikmət Cəfərov, Gülər Kərimova, Rauf Zeynalov, Saleh Əzimzadə, Ayşən Əsədova, Əlirza Şahbazi, Günel Abbaszadə, Emil Rzayev, Aysel Babazadə, Təvəkkül Həsənov, Vəfa Hacızadə, Məleykə Cəfərova, Teymur Hacızadə və Amil İbrahimli iştirak edirlər.

# Biləsuvarda "Hindtoyuğu festivalı"

Biləsuvar rayonunun mərkəzi parkında "Hindtoyuğu festivalı" keçirilib. Rayon İcra Hakimiyyəti, Şirvan-Salyan RMİ, "Azər Home Chef" şirkəti və "Turizmə və Milli Mətbəxin İnkişafına Dəstək" İctimai Birliyinin birgə təşkilatçılığı ilə reallaşan festivalda hindtoyuğu ətindən hazırlanan müxtəlif yeməklər təqdim edilib.



Festival iştirakçılarını salamlayan icra başçısı Faiq Qürbətov üçüncü ildir ki, təşkil olunan tədbirin rayonda turizmin inkişafına maraq baxımından əhəmiyyət daşıdığını, belə tədbirlərin milli mətbəximizin təbliğinə xidmət etdiyini deyib.

Festival çərçivəsində idman oyunları keçirilib, rəsm işi, bədii oyma, vitraj üzrə ustad dərsləri təşkil edilib, rəsm və əl işlərindən ibarət sərgi nümayiş olunub.

Mədəniyyət və incəsənət ustalarının ifasında təqdim olunan konsert proqramı, səhnəciklər maraqla qarşılanıb.

# Rasim Ocaqovun 90 illiyi doğulduğu Şəkidə qeyd olunub

Görkəmli kinorejissor, operator, Xalq artisti Rasim Ocaqovun (1933-2006) 90 illik yubileyi noyabrın 25-də doğulub boya-başa çatdığı Şəki şəhərində qeyd edilib.

Əvvəlcə qonaqlar Rasim Ocaqov adına Şəki Uşaq-Gənclər İnkişaf Mərkəzi ilə tanış olub, uşaqların əl işlərindən ibarət sərgiyə baxıb, bədii proqramı izləyiblər. Sənətkarın şəhərin Sülh meydanında, "Güyümlər" dairəsi adlanan ərazidə qoyulmuş barelyefi önünə gül dəstələri düzülüb.

Şəki Dövlət Dram Teatrında keçirilən yubiley tədbirinin iştirakçıları foyedə sənətkarın həyat və yaradıcılığını əks etdirən fotosərgi ilə tanış olublar.



Rejissor haqqında sənədli film izlənildikdən sonra Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri Xalq artisti Şəfiqə Məmmədova, Rasim Ocaqovun filmlərində rol almış Xalq artistləri Hacı İsmayılov, Fəxrəddin Manafov, uzun illər onunla çiyin-çiyinə çalışmış kino xadimləri çıxış edərək görkəmli sənətkarla bağlı xatirələrini bölüşüblər.

Rasim Ocaqovun ailə üzvləri adından nəvəsi Nərminə Həsənova yubiley gecəsinin yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirib.

Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov kinorejissorun 90 illiyinin qeyd olunmasının Şəkinin mədəni həyatında çox əlamətdar hadisə olduğunu bildirib.

Sonda sənətkarın ailə üzvlərinə xatirə hədiyyələri təqdim olunub.

# Gəncənin tarixi-mədəni irsinin təbliği ilə bağlı tədbir

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Gəncə Regional İdarəsi, Gəncə-Daşkəsən RMİ, Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu və AMEA-nın Gəncə bölməsinin dəstəyi ilə "Gəncə şəhərinin mədəni irsinin, tarix və mədəniyyət abidələrinin təbliği" mövzusunda maarifləndirici tədbir keçirilib.



Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) gerçəkləşən tədbirdə əvvəlcə Ulu öndərin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

ADAU-nun tərbiyə işləri üzrə prorektoru Aidə Qasımova qeyd edib ki, dövlət mədəniyyət siyasətinin əsas istiqamətlərindən biri tarixi-mədəni irsin qorunması və təbliği, eləcə də dünya mədəni irsi sahəsində maarifləndirilmənin aparılmasıdır.

Şəhər İcra Hakimiyyətinin şöbə müdiri Yadigar Bədəlov bildirib ki, dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması işinin təşkili, abidələrin istifadəsi və təbliği ilə bağlı aidiyyəti qurumların fəaliyyətinin əlaqələndirilməsi məqsədilə müəyyən tədbirlər həyata keçirilir.

Mövzu ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb.

# Qarabağ və Şərqi Zəngəzurda 8 rayonun ərazi bölgüsünə dəyişiklik edilir

"Azərbaycan Respublikasının Ağdam, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Qubadlı, Laçın və Şuşa rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" qanun layihəsi noyabrın 27-də Milli Məclisin Regional məsələlər komitəsində müzakirə olunub.

Komitənin sədri Siyavuş Novruzov diqqətə çatdırıb ki, nəzərdə tutulan dəyişikliklər Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası üzrə həmin rayonlarda ərazilərin planlaşdırılması və istifadəsini, bu ərazilərdə məskunlaşacaq əhalinin dövlət idarəçiliyinə əlçatanlığını daha səmərəli təşkil etmək məqsədi daşıyır.

Layihəyə əsasən, Şuşa rayonunun inzibati ərazi bölgüsünə daxil olan Malıbəyli, Yuxarı Quşçular və Aşağı Quşçular kəndləri Xocalı rayonunun inzibati ərazi bölgüsünə daxil edilir. Füzuli rayonunun inzibati ərazi bölgüsünə daxil olan Yuxarı Veysəlli və Ağbaşlı, Cəbrayıl rayonunun inzibati ərazi bölgüsünə daxil olan Yuxarı Məzrə və Laçın rayonunun inzibati ərazi bölgüsünə daxil olan Alıcan kəndlərinin ləğv edilərək ərazilərinin bütövlükdə Xocavənd rayonunun inzibati ərazisinə verilməsi nəzərdə tutulur. Füzuli rayonunun inzibati ərazi bölgüsünə daxil olan Divanalılar kəndinin 139 hektar ərazisi Xocavənd rayonunun inzibati ərazisinə verilir.

Bundan əlavə, Xocalı rayonunun inzibati ərazisinə aid dövlət mülkiyyətində olan 186 hektar torpaq sahəsinin Ağdam rayonunun inzibati ərazisinə, Xocavənd rayonunun inzibati ərazisinə aid dövlət mülkiyyətində olan 481 hektar torpaq sahəsinin isə Qubadlı rayonunun inzibati ərazisinə verilməsi nəzərdə tutulur.

Qanun layihəsi komitə tərəfindən bəyənilərək parlamentin plenar iclasına baxılmaq üçün tövsiyə edilib.

# Cəbrayılın Soltanlı kəndinin təməli qoyulub

İşğaldan azad edilmiş Cəbrayıl rayonun Soltanlı kəndi Macarıstan şirkətlərinin iştirakı ilə yenidən qurulacaq. Noyabrın 24-də Soltanlı kəndinin təməli qoyulub.

Mərasimdə Macarıstan xarici işlər və ticarət naziri Peter Siyarto, Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev və Soltanlı kəndinin bir qrup sakini iştirak edib.

Soltanlı kəndinin baş plan layihəsi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi əsasında Macarıstanın tikinti və layihələndirmə sahəsində fəaliyyət göstərən "KESZ" şirkətlər qrupu və Bakı Dövlət Layihə İnstitutu tərəfindən hazırlanıb.

Soltanlı kəndi Araz çayının sahilində, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd yolunun üzərində yerləşir. Layihəyə görə, ümumi sahəsi 398,82 hektar olan kənddə 1525 ailənin (6100 nəfər) yaşaması nəzərdə tutulur.

Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, Soltanlı kəndinin yenidən qurulması mərhələli şəkildə həyata keçiriləcək. Birinci mərhələdə kəndə qayıdacaq 1336 sakinin yaşayışını təmin etmək məqsədilə 315 fərdi ev tikiləcək. Məskunlaşma ərazisində həyətyanı sahəsi olan ümumilikdə 496 fərdi evin tikintisi təklif olunur. Bununla yanaşı, çoxmənzilli yaşayış binalarının inşası da planlaşdırılır.

Həmçinin kənd ərazisində inzibati bina, klub-icma mərkəzi, məktəb binası, bağça, xəstəxana, idman-sağlamlıq mərkəzi, hotel, ticarət və ictimai-iaşə obyektləri inşa olunacaq. Əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə baş planda kənd təsərrüfatı məhsullarının saxlanma anbarları, qablaşdırma və toxuculuq sexi, sənətkarlıq emalatxanaları, iri və xırda buynuzlu heyvanların saxlanıldığı fermalar və digər müəssisələr üçün ərazilər nəzərdə tutulub.



Soltanlı kəndi Cəbrayıl rayonunu ərazisində inşası başlanan artıq 5-ci yaşayış məntəqəsidir. Cəbrayıl şəhərindən sonra 2022-ci ildə rayonun 3 kəndinin (Şükürbəyli, Horovlu, Xudafərin) təməli qoyulub.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev diqqətə çatdırıb ki, 2026-cı ilə qədər Böyük Qayıdışa dair I Dövlət Proqramı üzrə ümumilikdə 100 yaşayış məntəqəsinin bərpa olunması və təxminən 140 min nəfər əhalinin işğaldan azad olunmuş ərazilərə qayıtması nəzərdə tutulur. 100 yaşayış məntəqəsinin 68-i Şərqi Zəngəzur iqtisadi rayonuna aiddir.

# "Fikrət Əmirovun əsərlərini ifa və təhlil edirik"

Gəncə-Daşkəsən RMİ və Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin birgə təşkilatçılığı ilə Gəncə şəhərindəki F.Əmirov adına 1 nömrəli Uşaq musiqi məktəbinin yaranmasının 100 illik yubileyinə həsr olunmuş "Fikrət Əmirovun əsərlərini ifa və təhlil edirik" adlı VIII elmi-ifaçılıq konfransı keçirilib.



Konfransda Bakı şəhər F.Əmirov adına 6 nömrəli onbirillik İncəsənət məktəbi və Gəncə şəhər F.Əmirov adına 1 nömrəli Uşaq musiqi məktəbinin müəllim və şagird kollektivləri iştirak ediblər.

Əvvəlcə görkəmli bəstəkarın yaradıcılığı haqqında məlumat verilib. Hər iki məktəbin müxtəlif ixtisaslardan olan şagirdləri əsərləri təhlil edərək səsləndiriblər.

Musiqişünasların bəstəkarın yaradıcılığı ilə bağlı məruzələri dinlənilib, videoslaydlar təqdim olunub.

Sonda regional idarə tərəfindən hər iki məktəbin kollektivinə təşəkkürnamə verilib.

# "Ən böyük qazan" Lənkəranda

Lənkəran şəhərindəki Heydər Əliyev parkında "Azərsun Holding"in təşkilatçılığı, şəhər İcra Hakimiyyətinin dəstəyi ilə "Ən böyük qazan" adlı layihə çərçivəsində festival keçirilib.



Əvvəlcə qonaqlar tanınmış kulinar Əliheydər Məmmədovun hazırladığı müxtəlif növ plovlardan dadıblar.

Festival çərçivəsində müxtəlif əyləncəli oyunlar nümayiş olunub, müğənnilər Kazımcan, Elvin Babazadə, "RR Show Band" qrupu öz ifaları ilə rayon sakinlərinə yaddaqalan anlar bəxş ediblər.

Festival boyu Azərbaycan Dövlət Rəqs Ansamblı tərəfindən müxtəlif rəqs nömrələri nümayiş etdirilib.

# Şamaxıda Üzüm və Şərab Festivalında "İrsi izlər" sərgisi də açılıb



25-26 noyabr tarixlərində Dövlət Turizm Agentliyi və Şamaxı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayonun Meysəri kəndində 2-ci Üzüm və Şərab Festivalı keçirilib. İlk dəfə 2019-cu ildə keçirilən festival yerli üzüm və şərab istehsalının təşviqini, şərab məhsullarının ixrac potensialının artırılmasını hədəfləyir.

Şamaxı rayonunun Meysəri kəndində təşkil olunan festivalda 20-yə yaxın yerli şərab istehsalçısının məhsulları nümayiş etdirilib. Festivalda müxtəlif əyləncəli-musiqili proqramlar təşkil olunub.

Festival çərçivəsində noyabrın 25-də Dağlıq Şirvan RMİ və "Art Studio and Gallery Turan" yaradıcılıq studiyasının təşkilatçılığı ilə Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən "İrsi izlər" adlı rəsm sərgisi açılıb. Şamaxı Yaradıcılıq Mərkəzində təşkil olunan sərgidə 28 gənc rəssamın əsərləri yer alıb.

Açılış mərasimində Şamaxının icra başçısı Tahir Məmmədov, Dağlıq Şirvan RMİ-nin nümayəndəsi Nurtən Əkbərli, sərginin ideya müəllifi və kuratoru Turan Muxtarzadə çıxış edərək sərginin əhəmiyyətini qeyd ediblər.

Sonda rəssamlara Dağlıq Şirvan RMİ-nin fəxri fərmanları təqdim olunub.

# “Zəfərin rəngi” – rəsm müsabiqəsinin yekun sərgisi



Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində “Mədəniyyət Könüllüləri” İctimai Birliyi tərəfindən elan edilən “Zəfərin rəngi” rəsm müsabiqəsinə yekun vurulub. Oktyabr ayında başlanan sənət yarışması Zəfər Gününə həsr edilmişdi. 24-25 noyabr tarixlərində Muzey Mərkəzində “Zəfərin rəngi” müsabiqəsinin yekun sərgisi keçirildi.

“Mədəniyyət Könüllüləri” İctimai Birliyinin sədri Ülviyyə Bəbirli müsabiqə haqqında məlumat verdi. Qeyd etdi ki, müsabiqənin əsas məqsədi yaradıcı gəncləri üzə çıxarmaq, onları ictimaiyyətə yaxından tanıtmaqdır.

Rəssamlar İttifaqının katibi Xalq rəssamı Ağaəli İbrahimov sərginin əhəmiyyətini yüksək qiymətləndirdi, bu vəsilə ilə peşəkar və həvəskar rəssamların bir araya gəlməsinin təqdirəlayiq olduğunu dedi: “Ulu öndər hər zaman rəssamlara xüsusi diqqət və qayğı göstərirdi. Onun özünün çəkdiyi rəsmlər hazırda Naxçıvanda dahi şəxsiyyətin adını daşıyan muzeydə qorunur. Bu gün təqdim olunan əsərlər həm də gələcək nəsillər üçün bir sənət səhifəsidir”.

Sonra 80 yaşını qeyd edən və bu yaxınlarda Prezident İlham Əliyevin sərəncamı ilə “Şərəf” ordeninə layiq görülən Xalq rəssamı Arif Hüseynova ictimai birliyin təbrik məktubu oxundu.

Arif Hüseynov sərgidə iştirak edən hər bir müəllifin mövzuya fərqli yanaşmasından söz açdı. Bildirdi ki, bu yanaşmaların fərqliliyi həm də rəssamlıq məktəbimizin zənginliyinin göstəricisidir.

Daha sonra rəsm müsabiqəsinin qalibi olan 13 müəllifə müxtəlif kateqoriyalar üzrə diplom və mükafatlar təqdim edildi.



Sərginin açılış mərasimində mədəniyyət naziri Adil Kərimli, tanınmış mədəniyyət və incəsənət xadimləri iştirak edirdilər.

Tədbirdə əvvəlcə Dövlət Himni səsləndirildi, şəhid Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu.



Sonda qonaqlar sərgi ilə tanış oldular. Sərgidə 70-ə yaxın əsər yer almışdı.

**Lalə Azəri**

# Türk dünyası memarlarının Şuşa simpoziumu

Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində noyabrın 24-25-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşada Türk dünyası memarlarının simpoziumu keçirilib.

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin təşkilatçılığı, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun dəstəyi ilə keçirilən tədbirdə Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Macarıstandan 60-a yaxın memar iştirak edib. Simpoziumun təşkilində əsas məqsəd Şuşada aparılan və aparılması nəzərdə tutulan tarixi memarlıq abidələrinin bərpası və konservasiyasında, tarixi mühitin abadlaşdırılmasında Türk dünyası memarlarının təcrübəsinin öyrənilməsidir.

Açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin icraçı direktoru Tural Novruzov, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin idarə heyətinin sədri Şahin Seyidzadə, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun layihə rəhbəri Nuri Aksu, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini İlqar İsbatov, digər rəsmilər iştirak ediblər.

Simpoziumun ilk günü iştirakçı ölkələrdən memarlar Şuşada bərpası və konservasiyası aparılan və aparılması nəzərdə tutulan tarixi memarlıq abidələri ilə bağlı təqdimatlarla çıxış ediblər.

Sonra simpozium iştirakçıları şəhərdə bərpa olunan tarixi tikililərə baş çəkiblər. Onlara abidələrin bərpası ilə bağlı ətraflı məlumat verilib.



Daha sonra “Turistlərin və sakinlərin abidələrə təsiri və bu proseslərin tənzimlənməsi” mövzusunda müzakirələr aparılıb.

Simpozium ikinci gün işinə “Tarixi şəhər landşaftının qorunması və regenerasiya siyasətləri” mövzusunda panel müzakirələrlə başlayıb. Şuşa Dövlət Qoruğu İdarəsinin əməkdaşı Müslüm İmranlının moderatorluğu ilə keçirilən panel müzakirələrdə Mustafa Yigit (Türkiyə), Aydar Yerassyl (Qazaxıstan), Aytən Abdullayeva (Azərbaycan), Zulduz Talantbekova (Qırğızıstan) və digərləri ölkələrində bələdiyyələrin mədəni irsin qorunmasında rolu, tarixi ərazilərin tədqiqi, mühafizə qanunvericiliyinin tarixi prosesi ilə bağlı çıxış edərək fikirlərini bildirib, təcrübələrini bölüşüblər.

Sonra “Abidələrin mühafizəsi, bərpası və konservasiyası” mövzusunda müzakirələr olub. Pərviz Poluxzadənin moderatorluq etdiyi müzakirələrdə Elçin Əliyev, Günay Ağayeva (hər ikisi Azərbaycan), Rumeysa Ragsana Hasanzadə, Mavlyuda Yusupova (hər ikisi Özbəkistan), Rahime Busra Uras (Türkiyə) və Saduakas Agitayev (Qazaxıstan) memarlıq abidələrinin bərpası, sənədləşdirilməsi, bərpa məktəblərinin işi ilə bağlı təqdimatlarla çıxış ediblər. Çıxışlarda memarlıq incilərinin qorunub saxlanılması istiqamətində təkliflər də səsləndirilib.

Özbəkistan memarları Baxtiyar Babamuradov və Şahboz Mustafoev Orta əsr memarlıq abidələrinin bərpa nümunələri haqqında danışıb, bu istiqamətdə perspektivləri diqqətə çatdırıblar. Azərbaycan təmsilçisi İlham Şıxsəyidov “Şuşa qalasının bərpası” mövzusunda çıxış edərək maraqlı məqamları vurğulayıblar. Macarıstandan gələn memar “Osmanlı Türk imperiyasının ən şimalda duran tikili” mövzusunda çıxış edib.

Daha sonra tarixi abidələrin müasir konservasiyası ilə bağlı çıxışlar olub. Nigar Ramazanova (Azərbaycan) “Qarabağ memarlığının təkamülü), Şuşa şəhərinin bərpasında iştirak edən tanınmış memar Pietro Laureano (İtaliya) “Beynəlxalq təcrübəyə münasibətdə bərpa seçimləri: rekonstruksiya, ənənəvi üsullar, innovativ həllər”, Unal Mehmet, Ceylan Oğuz və Mehmet Emin Yılmaz (hər üçü Türkiyə) tarixi abidələrdə konservasiya ilə bağlı Türkiyə təcrübəsi barədə danışıb, təcrübələrini bölüşüblər.

Sonda Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin icraçı direktoru Tural Novruzov simpoziumda iştirak edən türkdilli ölkələrin memarlarına təşəkkürünü bildirib, tədbirin tarixi abidələrin bərpası və konservasiyası işinə töhfə verəcəyinə əminliyini ifadə edib.

# Xoreoqraf Yusif Qasımovun 75 illik yubileyi qeyd olunub



Azərbaycan Dövlət Akademik Musiqili Teatrında Bakı Xoreoqrafiya Akademiyasının (BXA) müəllimi, Xalq artisti Yusif Qasımovun 75 illik yubileyi qeyd olunub.

Yubiley tədbirində BXA-nın, eləcə də Müdafiə Nazirliyinin Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və rəqs ansamblı, Dövlət Mahnı və Rəqs Ansamblı, Akademik Opera və Balet Teatrı və Akademik Musiqili Teatrının balet truppası üzvləri, Dövlət Rəqs Ansamblı və “Cəngi” ansamblı çıxış ediblər.

R.Hacıyevin “Azərbaycan süitası” xoreoqrafik müniatürü, P.İ.Çaykovskinin “Şelkunçik”, E.Mansurovun “Odlar yurdu”, “Acar rəqsi”, “Özbək rəqsi”, T.Quliyevin “Qaytağı”, xalq musiqisi “Laçın”, “Bayram süitası”, “Zəfər rəqsi”, “Vağzalı-Mirzəyi”, Q.Qarayevin “Yeddi gözəl” baletindən parça, “Yallı”, tacik xalq rəqsi “Masti bahor” və digər rəqs kompozisiyaları nümayiş olunub.

Konsert proqramı böyük maraqla qarşılanıb.

Gecədə ölkəmizdən və xaricdən mədəniyyət və incəsənət xadimlərinin yubilyara təbrikləri səslənib.

# ADRA-da “Zəfər” yaradıcılıq festivalı keçirilib




Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının (ADRA) Muzey-sərgi kompleksində uşaq və yeniyetmələr arasında “Zəfər” I respublika yaradıcılıq festivalı keçirilib.

25-27 noyabr tarixlərində festivalda rəsm studiyalarında təhsil alan uşaq və yeniyetmələrin şanlı Zəfərimizə və azad olunmuş ərazilərin bərpasına və dirçəlişinə həsr olunmuş əl işləri təqdim olunub.

Festivala qatılan studiyalar adından çıxış edən rəssam Esmeralda Tağızadə bildirib ki, layihə eyni zamanda uşaq və yeniyetmələrin Vətəni tərənnüm edən əsərlərinin təbliği üçün bir vasitədir.

Sərgidə ümumilikdə 5-16 yaş arası 130 iştirakçının 150-yə yaxın işi təqdim edilib.

Festival çərçivəsində “Kətan, Vətən” sənədli filmi nümayiş olunub. Film Birinci və İkinci Qarabağ müharibələrinin iştirakçıları olmuş dörd rəssam – Tərlan Eyvazov, İntiqam Ağayev, Cavidan Rəhmətov, Fərid Məmmədov haqqındadır.

İkinci Qarabağ müharibəsinin iştirakçısı, rəssam Cavidan Rəhmətov uşaqlara heykəltaraşlıq üzrə ustad dərsi keçib. Festival günlərində dekorativ-tətbiqi sənət, poster və “face-art” üzrə də ustad dərsləri təşkil edilib.

“Heydər Əliyev İli”

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları “Heydər Əliyev İli”nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (81)

### 1998-ci il 17 avqust

Prezident Heydər Əliyev Şəhriyar adına Mədəniyyət Mərkəzində Xalq yazıçısı Yusif Səmədoğlunun (Vəkilovun) son mənzilə yola salınması mərasimində iştirak edib.

### 1998-ci il 21 avqust

Bir qrup ədəbiyyat, mədəniyyət, incəsənət və elm xadiminə “Şöhrət” ordeni təqdim edib.

Təltif olunanlar: Xalq yazıçıları İlyas Əfəndiyev (orden oğlu Elçin Əfəndiyevə təqdim olunub), İsmayıl Şıxlı (oğlu Elçin Şıxlıya təqdim olunub), Hüseyn İbrahimov, Xalq şairləri Fikrət Qoca, Qabil, Balaş Azəroğlu, Xalq artistləri Qəmər Almaszadə, Vasif Adıgözəlov, Aqşin Əlizadə, Cövdət Hacıyev, Hacı Xanməmmədov, Nəsibə Zeynalova, Səyavuş Aslan, Zeynəb Xanlarova, Leyla Vəkilova, Lütfi Məmmədbəyov, Habil Əliyev, Sara Qədimova, Fidan Qasımova, Müslüm Maqomayev, Rauf Abdullayev, Fərhad Bədəlbəyli, Arif Babayev, Həsənağa Turabov, Hacıbaba Bağırov, Rasim Balayev, Sofya Hüseynova, Əməkdar incəsənət xadimi Emin Sabitoğlu, Xalq rəssamları Maral Rəhmanzadə, Mirələsgər Mirqasımov, Böyükağa Mirzəzadə, Elbəy Rzaquliyev, Ü.Hacıbəyovun Ev-Muzeyinin direktoru Ramazan Xəlilov, tarix elmləri doktoru Sara Aşurbəyli.

*“...Bu gün Azərbaycan müstəqil dövlət olaraq xalqımız tərəfindən tarix boyu yaradılmış əsərləri, əldə edilmiş nailiyyətləri dünyaya nümayiş etdirir və bununla da xalqımızın nə qədər böyük, istedadlı xalq olduğunu sübut edir... Bu gün buraya toplaşanlara nəzər salarkən mən bir fikri də ifadə etmək istəyirəm. Birincisi, siz – bu gün Azərbaycanın yüksək mükafatlarını alan şəxslər – hər biriniz Azərbaycanın mədəniyyət, elm, incəsənət tarixinə öz töhfələrinizi vermiş insanlarsınız. İkincisi, bu gün burada orden alan insanlar müxtəlif yaşlara mənsubdurlar. Ramazan Xəlilov 100 yaşına çatır. Fərhad Bədəlbəylinin, Rasim Balayevin 50 yaşı tamam olubdur. Bu, nəyi göstərir? Bu onu göstərir ki, Azərbaycanda nəsillər bir-birini ardıcıl surətdə əvəz edir. Azərbaycanın elm, mədəniyyət, ədəbiyyat, incəsənət xadimləri nəsilləri arasında əlaqələr qırılmır. Onlar bir-biri ilə bağlıdır, bir-birini irəliyə aparır... Xalqımızın, mədəniyyətimizin, incəsənətimizin, elmimizin çox gözəl keçmişi, tarixi və bu günü vardır. Mən tam əminəm ki, bundan da gözəl gələcəyi olacaqdır...”.*

### 1998-ci il 23 avqust

Azərbaycan xalqı qarşısında böyük xidmətlərinə görə mədəniyyət xadimi Ramazan Xəlilova və heykəltaraş Həyat Abdullayevaya fərdi təqaüd verilməsi haqqında sərəncam imzalayıb.

### 1998-ci il 24 avqust

Məşhur müğənnilər Müslüm Maqomayev və Tamara Sinyavskayanı qəbul edib.

### 1998-ci il 27 avqust

Azərbaycanda dünyəvi peşəkar teatrın yaradılmasının 125 illiyi haqqında fərman imzalayıb.

### 1998-ci il 8 sentyabr

Dağıstanın Xalq şairi, Azərbaycan ədəbiyyatının dostu Rəsul Həmzətova 75 illik yubileyi münasibətilə təbrik məktubu göndərib.

### 1998-ci il 10 sentyabr

Respublika Sarayında məşhur pianoçu, həmyerlimiz Bella Davidoviçin konsertində iştirak edib.

### 1998-ci il 12 sentyabr

Görkəmli bəstəkar, Xalq artisti Arif Məlikovu 65 illik yubileyi münasibətilə təbrik edib.

### 1998-ci il 16 sentyabr

Bakıda akademik Yusif Məmmədəliyevin abidəsinin açılış mərasimində nitq söyləyib.

### 1998-ci il 22 sentyabr

Respublika Sarayında Rusiya İctimai Televiziyasının (ORT) uşaqlar üçün “Utrennyaya zvezda” (“Dan ulduzu”) proqramının “Bakı-98” musiqi bayramında nitq söyləyib.

Azərbaycan vokal məktəbinin görkəmli nümayəndəsi Firəngiz Əhmədovanı 70 illik yubileyi münasibətilə təbrik edib.

### 1998-ci il 24 sentyabr

Suraxanı rayonunda şair Tofiq Bayramın büstünün və onun adını daşıyan istirahət parkının açılış mərasimində çıxış edib.

### 1998-ci il 7 oktyabr

Gəncənin Sərdar bağında Xalq şairi Nigar Rəfibəylinin abidəsinin açılış mərasimində iştirak edib.

### 1998-ci il 9 oktyabr

Bakıda Şəhidlər Xiyabanında əbədi məşəl abidəsinin açılış mərasimində iştirak edib və nitq söyləyib.

Azərbaycan Dövlət Musiqili Komediya Teatrının yeni binasının açılışı mərasimində nitq söyləyib.

*“...1998-ci il Azərbaycanda ilk dünyəvi, peşəkar teatrın yaranmasının 125-ci ilidir... Teatr Azərbaycanda mədəniyyətin, xalqımızın milli ruhunun, milli dirçəlişin inkişafında, ümumiyyətlə, xalqımızın mədəni səviyyəsinin yüksəlməsində böyük rol oynamışdır.*

*Bu gün biz toplaşdığımız yerdə əsrin əvvəlində Hacı Zeynalabdin Tağıyev təşəbbüs göstərərək teatr binası tikdirmişdir. Bu teatr binası da on illərlə, demək olar ki, 1980-ci illərin sonuna qədər xalqımıza xidmət etmişdir və biz Tağıyevə rəhmət oxumalıyıq, onun tarixi xidmətlərini qiymətləndirməliyik. Ancaq burada deyildiyi kimi, vaxtilə bu bina uçub dağılmışdı.*

*Yeni bina avadanlığı, texnikası, texnologiyası ilə müasir tələblərə cavab verir... Bəlkə kimsə deyə bilər ki, biz ağır vəziyyətdəyik, nə üçün teatr binasının tikintisinə bu qədər xərc qoyulubdur və belə gözəl bina yaradılıbdır? Ancaq yox, biz Azərbaycan xalqının mədəniyyətinin inkişafını heç vaxt dayandıra bilmərik. Biz mədəniyyətə nə qədər diqqət yetirsək, qayğı göstərsək, mədəniyyət xadimlərinin yaradıcılığı üçün imkanlar yaratsaq, xalqımızı da o qədər yüksəldəcəyik, xalqımızın mənəviyyatını daha da yüksəklərə qaldıracağıq...”.*

**Hazırladı: V.Orxan**

*(davamı var)*

# Xoşbəxt nəğmələr kimi

## Əli Əsgərovun onsuz qeyd olunan doğum günü...



Ömrünün sonunadək teatrın aparıcı solisti kimi bir-birindən maraqlı obrazları ilə yaddaşlarda qalmağı bacaran Əli Əsgərovun keçdiyi dolğun sənət yolu onu tanıyanların və sevənlərin bələdçiliyi, xatirələri işığında ekrandan səhnəyə, səhnədən sadə tamaşaçıların göz yaddaşına hopdu.

Öz səsi, öz aləmi, öz dünyası vardı onun. Səhnə onun üçün müqəddəs məkan, sənəti bütün arzu və istəklərinin istinad yeri idi. Belə olmasaydı, bütöv bir ömrü oxuduğu ariyalar, romans və ən mürəkkəb opera partiyalarının tonallığında keçirib, dünyaya al-qırmızı məxmər pərdələrin ağuşunda baxmaqla kifayətlənməzdi.

Mərhum Xalq artisti, Prezident mükafatçısı, şöhrəti ölkəsindən uzaqlara daha tez yayılan vokalçı Əli Əsgərovun (1963-2023) həyat fəlsəfəsi məhz bu idi: sənət ilə nəfəs alaraq yaşamaq...

Noyabrın 25-də Bakı Musiqi Akademiyasının Opera studiyasında sənətkarın xatirəsinə həsr olunmuş gecə keçirildi. Nadir səs sahibinin onsuz qeyd olunan ilk doğum gününə təsadüf edən kövrək notlu gecədə sənətsevərlər ilk olaraq Əli Əsgərovun xatirəsinə həsr olunmuş "Teatrın tarixi siması" adlı sənədli filmə baxdılar.

Əməkdar artist Ramil Qasımovun ideya müəllifi və rejissoru olduğu ekran işində vokal sənətimizdə özünəməxsus yeri olan ifaçının həyat və yaradıcılığına sənət yoldaşları və anasının bələdçiliyi ilə nəzər salındı. Qısa filmdə hər birimizin yaddaşında qalmağı bacaran şaqraq, gur səsli vokalçıya heyranlıq və böyük məhəbbət öz ifadəsini tapdı.

İndiki Bakı Musiqi Akademiyasını bitirən və 1990-cı ildən ömrünü Akademik Opera və Balet Teatrına bağlayan vokalçının ömrü unudulmaz xatirələr işığına qərq oldu.

Xalq artistləri Yalçın Adıgözəlov, Azər Zeynalov, Gülnaz İsmayılova, Əməkdar incəsənət xadimi Hafiz Quliyev, Əməkdar artistlər Tural Ağasıyev, Ramil Qasımov, Fəridə Məmmədova, Fərid Əliyev, İnarə Babayeva, Anton Ferştandt, eləcə də anası Taisya Əsgərova oğlunun dünyaya gəlişindən son anına, yuxuda verilən adından həyatda qazandığı sənət şöhrətinədək hər məqama həzin notlarla nəzər saldılar. Vokalçının həyat obrazı ayrı bir rəng qatdığı opera partiyalarından seçmələrin nümayişi ilə sənət obrazına qarışaraq könülləri oxşadı.

Film vasitəsilə onu da öyrəndik ki, Əli Əsgərov həm də dünyanın müxtəlif məşhur operalarında çıxış edən və hər dəfə qalıb o sənət ocaqlarında çalışmaq təkliflərinə "Mən Azərbaycanda doğulmuşam, onun musiqisinə xidmət edirəm" deməyi bacaran vətənpərvər olub. Gözqamaşdırıcı şöhrət vədlərinə "yox" deyərək formalaşıb, şöhrət pillələrini bir-bir qalxdığı milli opera səhnəmizə xəyanət etməyib...

Filmin təqdimatından sonra gecə konsert proqramı ilə davam etdi.

Sənətkarın səhnədə tərəf-müqabilləri, sənət yoldaşları – Gülnaz İsmayılova, Fidan Hacıyeva, İnarə Babayeva, Anton Ferştandt, Azər Zadə, Taleh Yahyayev, Mahir Tağızadə, Ataş Qarayev, Ruslan Persan Əli Əsgərovun ifası və yaratdığı obrazlarla yaddaşlarda qalan operalardan populyar klassik ariyalar ifa edərək ona olan sevgilərini bir də belə ifadə etməyə çalışdılar...

**Həmidə**

# 44 illik ömrə sığmayan sənət şöhrəti

Azərbaycan kinosunda bənzərsiz səsi, aydın diksiyası və fərdi yaradıcılıq üslubu ilə ekran obrazlarına əbədiyaşarlıq gətirən sənətkarlarımızdan biri də tanınmış aktyor, bədii qiraət ustası, Əməkdar artist Müxlis Cənizadədir. Teatr və kino rolları ilə yanaşı, dublyaj sahəsində də uğurla fəaliyyət göstərmiş sənətkarı anadan olmasının 95-ci ildönümü ilə bağlı yada saldıq.



Müxlis Sabir oğlu Cənizadə 26 noyabr 1928-ci ildə Bakıda dünyaya göz açıb. Erkən çağlardan musiqiyə, teatra maraq göstərib. Orta məktəbi başa vurduqdan sonra (1950) Azərbaycan Dövlət Teatr Texnikumuna qəbul olunur. Burada görkəmli sənətkarlar Kazım Ziya və Sidqi Ruhulladan sənətin sirlərini öyrənir. Təhsilini başa vurduqdan sonra təyinatla Azərbaycan Dövlət Musiqili Komediya Teatrında (indiki Akademik Musiqili Teatr) əmək fəaliyyətinə başlayır. İstedadı ilə qısa müddətdə kollektivin və tamaşaçıların diqqətini çəkir. 1953-cü ildə Akademik Dram Teatrına dəvət olunur. Maraqlı oyunu ilə bərabər, yaraşıqlı görkəmi, aydın diksiyası rol aldığı tamaşalara əlavə canlılıq gətirir.





Müxlis Cənizadə səhnə fəaliyyəti ilə yanaşı, gənc yaşlarından bədii qiraət ustası kimi də tanınıb. 1961-ci ildə Dövlət Teatr İnstitutunda (indiki ADMİU) pedaqoji fəaliyyət göstərib.

Aktyor həmçinin xarici filmlərin dublyaj olunmasında yaxından iştirak edib, bu sənətin kinonun ayrılmaz hissəsi olduğunu göstərib. Elə buna görə də müasirləri tərəfindən dublyaj ustası adlandırılıb. Bənzərsiz səsi ilə personajın çıxışlarının təfərrüatını təsirli şəkildə göstərə bilib. Ekranda bir çox ciddi xarakterli rollarla bərabər, komik obrazları da məharətlə səsləndirib. Filmlərdə səsləndirdiyi prokuror ("Xatirələr sahili"), Çingizov ("İstintaq davam edir"), Əli müəllim ("Sehrli xalat"), Murad ("Torpaq. Dəniz. Od. Səma") və digər obrazları daha təsirli və inandırıcı olub.

Görkəmli kinorejissorlardan Tofiq Tağızadə, Əlisəttar Atakişiyev, Rza Təhmasib, Hüseyn Seyidzadə və başqaları böyük maraqla onu çəkilişə dəvət ediblər. H.Seyidzadə lentə aldığı üç filmdə M.Cənizadəyə rol verib. Rejissor onun bədii qiraət ustası kimi məharətini "O olmasın, bu olsun" filmində çox qabarıq şəkildə təqdim edir. Aktyor filmdə M.Ə.Sabirin şeirini xüsusi bir intonasiya ilə deyərək gənclərin düşdüyü vəziyyətin bədii mənzərəsini yaradır. Eyni zamanda hadisələrin realist inkişaf istiqamətini göstərir.

Aktyor "O olmasın, bu olsun", "Dəli Kür" və "Yenilməz batalyon" filmlərində canlandırdığı Sərvərin dostu, Kipiani və Nəriman Tağıyev obrazları dünyagörüşü, davranışı və mədəniyyəti ilə diqqətçəkən xarakterik personajlardır.

M.Cənizadə "Azərbaycanfilm" kinostudiyasında lentə alınan 20-dək filmdə rol alıb. "Bakının işıqları", "Bəxtiyar", "Ən vacib müsahibə", "Əsl dost", "Onu bağışlamaq olarmı?" filmlərində yaratdığı Qara, Kərim, Ənvər müəllim, Əsəd, baş leytenant İbrahimov və başqa obrazlarda onun hamıya tanış olan şəxsi keyfiyyətləri aydın görünür. Çəkildiyi obrazlarda fərdi insani keyfiyyətləri tamaşaçıya daima müsbət enerji bəxş edir.

Aktyor çəkildiyi əvvəlki ekran əsərlərindən fərqli olaraq, "İyirmialtılar" filmində qoçu obrazını da böyük məharətlə yaradıb. Onun baxışları, aqressiv davranışı və fərqli yaradıcılıq üslubu tamaşaçıda narahatlıq yaradır...

Yaradıcılığı yüksək qiymətləndirilən sənətkar 1960-cı ildə "Əməkdar artist" adına layiq görülüb.

Mənəvi gözəlliyini rollarında təlqin edən görkəmli aktyor, səsinin möhtəşəmliyi və təravəti ilə unudulmayan qiraət ustası Müxlis Cənizadə 10 dekabr 1972-ci ildə, 44 yaşında dünyasını dəyişib. 44 yaş bir aktyor üçün yaradıcılıq həyatının ən qaynar, məhsuldar çağıdır. Bu vaxtsız gediş olmasaydı, aktyorun istedadı neçə-neçə ekran əsərində parlayacaq, tamaşaçıların zövqünü oxşayacaqdı...

**S.Fərəcov**

Yubilyar filmlər

# Romeo ilə altmış il "qonşu olmaq"...



Klassiklərdən kimsə təxminən belə deyib ki, faciə təkrarlananda komediyaya çevrilir. Adətən, bədii əsərdən söz düşəndə bu, heç yaxşı sayılmır. Çünki istər milli, istər beynəlxalq kino, teatr məkanında buna "n" qədər neqativ nümunə tapmaq olar, bircə bəhs etdiyimiz əsərdən başqa. Çünki "nəlbəkidə qasırğa" ovqatı yaradan Boqdanovlar – Quliyevlər ailələrinin (daha doğrusu, Boqdanovaların başladığı və qismən Quliyevləri cəlb edə bildikləri) qarşıdurma əsl komik situasiyadır.

Söhbət altmış yaşı tamam olan "Romeo mənim qonşumdur" filmindən gedir. 1963-cü ildə çəkilmiş "Romeo mənim qonşumdur" filmini seyr etməmiş azərbaycanlı kinosevər çətin tapılar.

Bəri basdan qeyd edək ki, görkəmli bəstəkar Rauf Hacıyevin "Romeo mənim qonşumdur" (ilk adı "Qonşular") operettası ekran ömründən öncə şöhrətli səhnə həyatı yaşayıb. Bəstəkarın digər operettaları kimi, "Romeo mənim qonşumdur" əsərinin də librettosu (müəllif Vyaçeslav Yesman) rus dilində yazılıb. 1960-cı ildə "Qonşular" adı ilə Azərbaycan Musiqili Komediya Teatrında (indiki Azərbaycan Dövlət Akademik Musiqili Teatrı) tamaşaya qoyulan əsər artıq həmin ilin dekabrında Moskva Operetta Teatrında "Romeo mənim qonşumdur" kimi səhnəyə çıxmışdı.

Ümumiyyətlə, 1960-1969-cu illərdə "Romeo mənim qonşumdur" operettasını yaxın-uzaq musiqili teatrların fatehi saymaq olar. Belə ki, mahnıları, qəhrəmanların işlətdikləri ifadələr ("Mən doğma qardaşımın qardaşıyam", "Mən elektrik dəlisiyəm", "Hətta Şekspir də mənzil rahatlığında eyvanın rolunu xüsusi qeyd edib", "Ən böyük ada Afrikadır, hər tərəfi sudur da", "Sonra professor huşunu itirdi" və d.) dillər əzbərinə çevrilən tamaşa Moskva, Kiyev, Riqa, eləcə də Sofiya (Bolqarıstan), Krakov, Lodz, Qdansk (Polşa) şəhər teatrlarının afişa lövhələrini bəzəyib. Onun 1963-cü ildə Moskva Operetta Teatrında 100-cü dəfə oynanılması da xoşbəxt sonluqlu əsərin tamaşaçıların ürəyincə olduğuna, onların Rauf Hacıyevin möhtəşəm musiqisindən zövq aldıqlarına sübutdur.







Filmə gəlincə, bu barədə geniş danışmaq niyyətində deyilik. Çünki deyilənləri, yazılanları təkrar etməyə ehtiyac duymuruq. Sadəcə, beynəlmiləl yaradıcı heyəti olan ekran əsərində çəkilmiş aktyorlar barədə öyrənib bildiklərimizi az qala hər bayramda bir neçə telekanalda nümayiş olunan "Romeo mənim qonşumdur" filmini həzz alaraq seyr edən kinosevər oxucularımızla bölüşmək istəyirik.

"Romeo mənim qonşumdur" sonradan bir neçə maraqlı filmə ekran həyatı bəxş edəcək Şamil Mahmudbəyovun kinoda ilk müstəqil quruluşçu rejissor işidir. Filmin iki ssenari müəllifi var. Onlardan biri elə operettanın libretto müəllifi Vyaçeslav Yesman, o biri İosif Prutdur.

Rusdilli internet resursları nə qədər zəngin olsa da, Rauf Hacıyevin "Təbəssümünü gizləmə", "Kuba – məhəbbətim mənim" operettalarının da libretto müəllifi olan Vyaçeslav Yesman barədə dolğun məlumat tapa bilmədik. 2009-cu ildə Dağıstan Opera və Balet Teatrında səhnələşdirilən Murad Kajlayevin "Validə" operettasının librettosunu da V.Yesmanın yazması, belə düşünməyə haqq verir ki, o, uzun və məhsuldar ömür yaşayıb.

Filmin digər ssenari müəllifi İosif Leonidoviç Prut isə gerçəkdən uzun ömür (1900-1996) yaşayıb. İyirmidən çox pyes yazmış, təxminən otuz bədii lentin ssenari müəllifi olmuş Prutun "Azərbaycanfilm" ilə yaradıcılıq münasibətinin ilk bəhrəsi 1943-cü ilə aiddir. O, yazıçı Mir Cəlal və Lev Vaysenberq ilə birlikdə "Bir ailə" (1943, quruluşçu rejissor Qriqori Aleksandrov) filminin ssenarisini qələmə alıb. Rejissor Şamil Mahmudbəyov ilə işbirliyi isə sonralar da davam edib. Onun 1966-cı ildə çəkdiyi (rejissor Rüfət Şabanovla birgə) "Qaraca qız" filminin ssenarisini də İosif Prut qələmə alıb. Maraqlıdır ki, bu filmin də bəstəkarı Rauf Hacıyevdir.

"Romeo mənim qonşumdur" filmində beynəlmiləlçilik o qədər də qabarıq verilməsə də, qarışıq millətlərin ailə qurmasının təqdir edilməsi kimi sovet ideoloji xətti bilinir. Əgər professor Yunis Quliyevin həyat yoldaşı Aqrippina Nikolayevnanın rus olduğu aşkar bəllidirsə, Boqdanovlarda məsələ bir qədər başqadır. Hətta uzun illər "Romeo mənim qonşumdur" filmi Boqdanovların erməni olması səbəbindən televiziya ilə nümayiş olunmadı. Halbuki Boqdanovların adları – Ruben, Nona, Stella, Şurik (qısaldılmış), hətta Solmaz (Azərbaycanda məskunlaşmış əksər xalqlar bizim adları öz övladlarına verirlər) adı bu ailənin erməni kökənli olduğunu göstərmir. Əksinə, inanclı şərqi slavyanlar böyük həvəslə oğlana Boqdan, qıza Boqdana adı verirlər ki, bunun da hərfi tərcüməsi Allahverdi deməkdir. O ki qaldı Nonanın əmisi Kolumb Xristoforoviçin adına, bu seçim tipik mənfi qəhrəman ismidir.

Maraqlı və qəribədir ki, "Romeo mənim qonşumdur" filminin 13 qəhrəmanından cəmi üçünü (epizodik Evlər müdiri rolunu ifa edən Yusif Yıldızı çıxmaqla) Azərbaycan sənətçisi oynayıb: aradabir kinoya çəkilən, amma bütün kino obrazlarını xüsusi koloritlə yaradan görkəmli teatr rejissoru Adil İsgəndərov (professor Quliyev), aktrisa kimi kinodan daha çox teatrda bəxti gətirən Sofa Bəsirzadə (Solmaz), bir də ilk dəfə kino kamerası önünə keçən Səyavuş Aslan (Səməd).

Madam ki, ilk olaraq professor Quliyevin adını çəkdik, tanıtıma elə onun ailə üzvlərindən başlayaq.

Arif – 1940-cı ildə doğulmuş İrakli Xizanişvili "Romeo mənim qonşumdur" filminə çəkiləndə Moskvada Ümumittifaq Kinematoqrafiya İnstitutunun tələbəsiymiş. Ali təhsilini başa vurduqdan sonra Moskva Kino Aktyoru Teatrında işləməyə başlayır, ara-sıra həm Rusiyada, həm də Gürcüstanda filmlərə çəkilir. Sovet İttifaqı dağılandan sonra İrakli Xizanişvili Amerikaya mühacirət edir və onun sonrakı taleyi barədə məlumatımız yoxdur.

Aqrippina Nikolayevna – aktrisa Kseniya Kozmina (1912-2003) təxminən 41 il ərzində 47 filmə çəkilib, yüzlərlə filmin dublyajında iştirak edib. "Mosfilm" kinostudiyasının nəzdindəki Kino aktyoru məktəbində sonuncu kursda təhsil alarkən repressiya qurbanı olub. İslah-əmək düşərgəsində beş il həbs cəzasına məhkum edilib. Həbsdə cəza müddəti daha üç il artırılıb. 1946-cı ildə azadlığa çıxsa da, yalnız 1955-ci ildə bəraət qazanıb.

İndi də yaxşı Boqdanovlar ailəsini oynayan dəvətli aktyorlar barədə danışaq. Nona rolunun ifaçısı Ariadna Şengelaya (qızlıq soyadı Şprink) 1937-ci ildə Daşkənddə doğulub. Atası alman, anası rusdur. Moskvada Kinematoqrafiya İnstitutunda təhsil alarkən sonralar görkəmli rejissor kimi tanınacaq Eldar Şengelaya ilə ailə qurur. "Romeo mənim qonşumdur" filmindən başqa "Azərbaycanfilm"in istehsalı olan "Ən vacib müsahibə" (1971) və "Bizi bağışlayın" (1979) filmlərində də çəkilib. Sovet kinosunu seyr etməyi sevənlər bu aktrisanı məşhur gürcü filmi "Qəm yemə!" (1969) lentindəki Knyaginya obrazını da xatırlayırlar. Hazırda sənətdən uzaqlaşmış ahıl aktrisa Tbilisidə yaşayır, qapalı həyat tərzi keçirərək yalnız doğmaları ilə vaxt keçirir.

Nonanın atası – şahmatçı Ruben Boqdanov rolunda çəkilmiş Aşot Nersesyan (1904-1984) "Romeo mənim qonşumdur" filmindən başqa bizim "26-lar" və "Ulduzlar sönmür" filmlərində epizodik rollara çəkilib.

Heç şübhə yox ki, "Romeo mənim qonşumdur" filminə kolorit qatan obrazlardan biri də Stelladır. Bu qəliz obrazı canlandıran aktrisa Nadejda Samsonova (1924-2010) epizodik rollar ustası kimi məşhurlaşıb. O, SSRİ-nin müxtəlif kinostudiyalarında 200-dən artıq xarakterik rollar oynayıb, Moskva kinostudiyalarında yüzlərlə filmin rus dilində səsləndirilməsində iştirak edib.

"Romeo mənim qonşumdur" əsərini komediyaya çevirən ikinci əsas obraz isə Kolumb Xristoforoviç rolunda çəkilmiş məşhur gürcü aktyoru İppolit Xviçia (1910-1985) sayılır. Azərbaycan tamaşaçısı bu aktyoru çox sevdiyimiz "Mimino" filmindəki kepka tikən fırıldaqçı dərzi rolunda da görüb.

Maraqlıdır ki, "Romeo mənim qonşumdur" filmində çəkilmiş daha bir sənətçi – Şura rolunun ifaçısı Mikaela Drozdovskayanın (1937–1978) da taleyi "Mimino" filmindən keçib. Aktrisa bu filmdə Nuqzarın həyat yoldaşı rolunda çəkilib. Cəmi iki dəfə ekranda görünən gözəl aktrisanın taleyi gətirməyib. 1978-ci ildə Vladiqafqazda çəkilişdə olarkən bədbəxt hadisə zamanı yanaraq həlak olub.

Biz "Romeo mənim qonşumdur" filmində əsas rollarda cəmi üç Azərbaycan sənətçisi çəkilib deyərkən ola bilsin ki, kimsə bizə irad tutsun ki, bəs Murik?

Dövrünün əsl stilyaqalarının oxşarı olan Murik rolunda gənc sənət həvəslisi Səlim Vəkilov çəkilib. Neft və Kimya İnstitutunun tələbəsi olan Səlim eyni zamanda Adil İsgəndərovun kino-aktyor məktəbinin ilk tələbələrindən olub. Çox yaxşı aktyor fakturası olmasına baxmayaraq, o öz taleyini tamam fərqli istiqamətə yönəldib. Deyilənə görə, bir sevgi macərasının ardınca Polşaya mühacirət edib və orada qalıb.

***

Hərdən adama elə gəlir ki, "Romeo mənim qonşumdur" filmi lap çoxdanın filmidir. Çünki oradakı simalar, arzular, sevgi izharları, situasiya adama uzaq gəlir.

Amma ekran əsərinin saundtrekini, Rəşid Behbudovun ifasındakı "Sevgilim", Mirzə Babayevin "İki qəpikdir fincanı", "Yarın özünə qurban olum" mahnılarını eşitmək kifayətdir ki, bu filmin lap cavan olduğunu düşünəsən. Belə baxanda 60 yaş film üçün nədir ki…

**Gülcahan Mirməmməd**

# Vilayət Quliyevin Heydər Əliyev haqqında xatirələr kitabının təqdimatı keçirilib

## Müəllifin özünün yubileyi münasibətilə biblioqrafik nəşr də işıq üzü görüb

Azərbaycan Milli Kitabxanasında ictimai-siyasi xadim, ədəbiyyatşünas alim, filologiya elmləri doktoru Vilayət Quliyevin "Heydər Əliyev. Böyük insan haqqında xatirələr" və Mədəniyyət Nazirliyinin Milli Kitabxana ilə birgə "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından nəşr etdirdiyi "Vilayət Quliyev. Biblioqrafiya" kitablarının təqdimatı olub.



Kitabxanadan bildirilib ki, tədbirdə direktor Kərim Tahirov Vilayət Quliyevin Azərbaycanın istiqlal mübarizə tarixində müstəsna rol oynayan görkəmli şəxsiyyətləri haqqında arxiv materialları əsasında yazdığı kitablardan bəhs edib.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov Vilayət Quliyevin Vətənə olan xidmətlərindən söz açıb, onun elmi fəaliyyətini yüksək qiymətləndirib. F.Cəfərov alimin yaradıcılığında ədəbiyyatla yanaşı, siyasi mövzuda yazılan kitabların, xüsusən Azərbaycan Xalq Cümhuriyyətinin tarixi ilə bağlı əsərlərin əhəmiyyətini vurğulayıb.

Tədbirdə Azərbaycanda Atatürk Mərkəzinin direktoru akademik Nizami Cəfərov, Azərbaycan Yazıçılar Birliyinin sədr müavini Rəşad Məcid, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi professor Asif Rüstəmli, "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarov, BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı Ələmdar Cabbarlı və başqaları çıxış ediblər.

Çıxış edənlər Vilayət Quliyevin Cümhuriyyət tariximizlə bağlı yazdığı əsərlərin üslubundan danışıb, onun kitablarının siyasi memuar janrının dəyərli nümunələrindən biri olduğunu qeyd edib, "Heydər Əliyev. Böyük insan haqqında xatirələr" kitabının önəmini vurğulayıblar.

Çıxışlarda Vilayət Quliyevin geniş yaradıcılıq fəaliyyətini əks etdirən biblioqrafiyadan da bəhs edilib.

Xatırladaq ki, Milli Kitabxananın "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından hazırladığı biblioqrafiya diplomat, ədəbiyyatşünas, tərcüməçi Vilayət Quliyevin anadan olmasının 70 illiyinə həsr edilib. Biblioqrafiyada 1969-2022-ci illəri əhatə edir.

Sonda Vilayət Quliyev biblioqrafik nəşrin ərsəyə gəlməsində əməyi keçən hər kəsə təşəkkürünü bildirib.

## Xatirə təqvimi — 29 noyabr – 1 dekabr

### Azərbaycan

**29 noyabr 1920** – Əməkdar rəssam Güllü Hacağa qızı Mustafayeva (1920-1993) Türkmənistanın Cərco şəhərində anadan olub. Əsərləri: "Leyli və Məcnun məktəbdə", "Şairə Məhsətinin portreti" və s. Yaradıcılığında uşaq portretləri xüsusi silsilə təşkil edir.

**29 noyabr 1928** – Azərbaycanın, SSRİ-nin və Rusiya Federasiyasının Xalq rəssamı Tahir Teymur oğlu Salahov (1928 – 21.5.2021) Bakıda doğulub. SSRİ Dövlət mükafatına, Azərbaycanın və Rusiyanın Dövlət mükafatlarına, Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb. Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti, Moskva Rəssamlıq Akademiyasının professoru olub. Məşhur əsərləri: "Bəstəkar Qara Qarayevin portreti", "Təmirçilər", "Səhər eşelonu" və s. Azərbaycanın ən ali təltifi olan "Heydər Əliyev" ordeninə (2008) layiq görülüb.

**29 noyabr 1994** – Əməkdar incəsənət xadimi, rəssam Kamal Əhməd oğlu Əhmədov (28.2.1940 – 1994) vəfat edib.

**29 noyabr 2009** – Əməkdar artist Firdovsi Qiyas oğlu Naibov (22.4.1935 – 2009) vəfat edib. Akademik Milli Dram, Gənc Tamaşaçılar teatrlarının aktyor olub.

**29 noyabr 2010** – Xalq artisti, diktor Fatma Ağacabbar qızı Cabbarova (7.11.1920 – 2010) vəfat edib. Azərbaycanın ilk radio diktorlarından olub.

**30 noyabr 1934** – Şair, tərcüməçi İlyas Oruc oğlu Tapdıq (1934 – 25.12.2016) Gədəbəy rayonunun Əli İsmayıllı kəndində anadan olub. "Meşənin mahnısı", "Qızlar və qağayılar", "Məhəbbət yolları" və s. kitabların müəllifidir. Rus dilindən ədəbi tərcümələr edib.

**30 noyabr 1950** – Moskvada Azərbaycan ədəbiyyatı və incəsənəti günləri (dekadası) başlanıb. Dekabrın 9-dək davam edib.

**30 noyabr 1973** – Əməkdar artist Cabbar Əli oğlu Əliyev (15.1.1904 – 1973) vəfat edib. Akademik Dram Teatrının aktyoru olub, filmlərdə çəkilib.

**30 noyabr 1973** – Əməkdar incəsənət xadimi, rəssam İzzət Əli qızı Seyidova (20.10.1910 – 1973) vəfat edib. İlk azərbaycanlı qadın teatr rəssamlarından olub, 1938-ci ildən Opera və Balet Teatrında fəaliyyət göstərib.

**30 noyabr 2012** – Əməkdar artist, skripkaçı, pedaqoq Tahir İsrafil oğlu Atakişiyev (21.8.1927 – 2012) vəfat edib.

**1 dekabr 1940** – Teatr xadimi, dramaturq, aktyor, Əməkdar artist Mirmahmud Mirələkbər oğlu Kazımovski (1882-1940) vəfat edib. Kiçik pyes, vodevil və musiqili komediyalar yazıb. "Bakılılar" (1938), "Kəndlilər" (1939) filmlərində çəkilib.

**1 dekabr 1940** – Nasir, publisist, tərcüməçi Rafiq Savalan (Rafiq İmanqulu oğlu Ağayev; 1940 – 29.10.2023) Bakıda anadan olub. Azərbaycan Televiziyası və Radiosunda işləyib. Rus ədəbiyyatından tərcümələr edib.

**1 dekabr 1981** – Bakıda görkəmli aktyor, rejissor Hüseyn Ərəblinskinin 100 illiyinə həsr olunmuş təntənəli gecə keçirilib. Respublikanın rəhbəri – Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev mərasimdə iştirak edib.

**1 dekabr 2004** – Xalq şairi Məmməd Araz (Məmməd İnfil oğlu İbrahimov; 14.10.1933 – 2004) vəfat edib. Kitabları: "Qayalara yazılan səs", "Yolayrıcında söhbət" və s. Rus dilindən ədəbi tərcümələr edib. Azərbaycanın "İstiqlal" ordeninə layiq görülmüş (1995) ilk şairlərdən biridir.

**1 dekabr 2015** – UNESCO Hökumətlərarası Komitəsinin 10-cu sessiyasında (Vindhuk, Namibiya) Azərbaycan tərəfindən təqdim olunan "Lahıc misgərlik sənəti" nominasiyası Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilib.

**1 dekabr 2016** – Şəki şəhərində "Şəki – Türk dünyasının mədəniyyət paytaxtı – 2016" ilinin bağlanış mərasimi keçirilib. TÜRKSOY-un "Mədəniyyət paytaxtı" layihəsində estafeti Qazaxıstanın Türkistan şəhəri qəbul edib.

### Dünya

**29 noyabr 1906** – Məşhur kinooperator, sənədli filmlər rejissoru, SSRİ Xalq artisti Roman Lazareviç Karmen (1906–1978) Odessada anadan olub. "Xəzər neftçiləri haqqında povest" sənədli filminə görə "Azərbaycanın Əməkdar incəsənət xadimi" adına layiq görülüb.

**30 noyabr 1667** – İngilis (irland) yazıçısı, "Qulliverin səyahəti" əsərinin müəllifi Conatan Svift (Jonathan Swift; 1667–1745) anadan olub.

**30 noyabr 1817** – Alman filoloqu və tarixçisi, ədəbiyyat üzrə Nobel mükafatı (1902, "Roma tarixi" əsərinə görə) laureatı Teodor Momzen (Theodor Mommsen; 1817–1903) anadan olub.

**30 noyabr 1835** – Amerika yazıçısı Mark Tven (Mark Twain – əsl adı Samuel Langhorne Clemens; 1835–1910) anadan olub. "Heklberri Finnin macəraları", "Tom Soyerin macəraları" və s. romanların müəllifidir.

**1 dekabr 1940** – Amerikalı komediya aktyoru, ssenarist Riçard Prayor (Richard Pryor; 1940-2005) anadan olub.

**Hazırladı: V.Orxan**



# "Bir pianoçu, bir yazar"

## Bakının Türkiyə və Şimali Kiprdən musiqiçi qonaqları

Tanınmış türkiyəli pianoçu Rüya Taner və saksofon ifaçısı Kürşad Başar noyabrın 22-də Beynəlxalq Muğam Mərkəzində konsert proqramı ilə çıxış etdilər.

"Bir pianoçu, bir yazar" adlı musiqi axşamı Türkiyə Cümhuriyyətinin yaradılmasının 100 və Şimali Kipr Türk Cümhuriyyətinin elan olunmasının 40-cı ildönümünə həsr edilmişdi.

Konsertdən əvvəl Bakıdakı Yunus Əmrə İnstitutunun rəhbəri Selçuk Karakılıç çıxış edərək ölkələrimiz arasında mədəni əlaqələrdən söz açdı. Dedi ki, bu il Türkiyə və Azərbaycan üçün əlamətdar ildir. Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin 100 illiyi, eləcə də Türkiyə Cümhuriyyəti və ŞKTC-nin yaradılmasının yubileyləri silsilə tədbirlərlə qeyd olunur.

ŞKTC-nin Azərbaycandakı nümayəndəsi xanım Ufuk Turqaner qeyd etdi ki, qardaş ölkələrimizin incəsənət ustalarının bir araya gəlməsi mədəni əlaqələrimizin daha da güclənməsinə töhfə verəcək.

Sonra səhnə musiqiçilərin ixtiyarına verildi. İlk olaraq pianoçu Rüya Taner və saksofon ifaçısı Kürşad Başar bütün türk ellərinə ərməğan kimi "Bir başqadır mənim məmləkətim" mahnısını təqdim etdilər. Daha sonra klassik Avropa və türk bəstəkarlarının əsərlərindən ibarət ifalar bir-birini əvəzlədi.

Kürşad Başar Azərbaycanda olmasından məmnunluğunu ifadə etdi və ana babasının azərbaycanlı olduğunu dedi. Bu il 60 illiyini qeyd edən musiqiçi İstanbulda anadan olub. İstanbul Universitetinin Fəlsəfə fakültəsini bitirib və jurnalistika karyerasına "Hürriyet" qəzetində başlayıb, Türkiyənin bir sıra nəşrlərində köşə yazarı, redaktor və menecer kimi fəaliyyət göstərib. O həm də "TRT FM", "Power FM" və "PowerXL" radio kanallarında proqramçı kimi çalışıb. Eyni zamanda bir neçə serialda rol alıb.

Yazar kimi "Söhbət etdiyimiz qədər uzaqlarda", "Sən olsaydın, bunu etməzdin", "Sevgi tapmaq və qorumaq yolları", "Vasitəçi həyatlar", "Çox güldük, ağlamayaq" və digər kitabları maraqla qarşılanıb. O, Türkiyədə ən çox oxunan müəlliflərdən biridir.

***



Konsertdən sonra türkiyəli sənətçilər "Mədəniyyət" qəzeti üçün özəl müsahibə də verdilər.

Öncə Kürşad bəylə həmsöhbət olduq.

*– Konsert başlayanda ana tərəfdən azərbaycanlı olduğunu dediniz. Bu barədə bir qədər ətraflı məlumat verərdiniz.*

– Bəli, anamın atası və babası Azərbaycandan Qars vilayətinə köçüblər. Mən babamı görməmişəm. Amma bu gün məni tanıyan, görən hamı da xatırladır ki, sən Qarsda çox hörmətli və tanınmış məktəb müdiri, deyərdim ki, hətta orada məktəbi quran Rüştü bəyin nəvəsisən. İlk dəfədir ana yurdum Azərbaycana gəlirəm. Çox məmnunam. Anamın səhhəti səfərə çıxmağa imkan vermir. Azərbaycana gedəcəyimi biləndə çox sevindi və salam söyləməyimi istədi. Dedim ana, kimə söyləyim, tanıdığımız, bildiyimiz bir kimsə yoxdur. "Torpağıma, vətənimə söylə" dedi... Hazırda anamdan Azərbaycan dilində bəzi kəlmələrin mənasını öyrənirəm.

*– Paytaxtımızı necə gördünüz?*

– Bakı gecələrinə valeh oldum. Siz küləklər şəhəri deyirsiniz, amma mən dünəndən Bakıya işıqlar şəhəri adını vermişəm.

*– Yaradıcılığınız çoxşaxəlidir: yazıçı, jurnalist, musiqiçi. Özünüzü hansı sahədə daha rahat hiss edirsiniz?*

– Mənim əsas yaradıcılıq fəaliyyətim yazıçılıqdır. Musiqi ilə uzun zaman hobbi kimi məşğul olmuşam. Son 15 ildir peşəkar səviyyədə ifa edirəm. Ədəbi yaradıcılıq zamanı tənha oluram, musiqidə isə tamaşaçılarla.

*– Bəs saksofon ifaçılığına marağınız necə yarandı?*

– Musiqiyə nağara ilə başladım, daha sonra saksofonu sevdim.

*– Bugünkü konsertin təəssüratları necədir? Başqa ölkələrdə qastrolda olmusunuzmu?*

– Çox möhtəşəm qarşılandıq. Sabah daha bir konsertimiz olacaq. Bu günə kimi İngiltərə, İtaliya, Portuqaliya, Fransa və s. ölkələrdə qastrolda olmuşuq.

*– Musiqinin hansı janrı sizə daha yaxındır?*

– Caz musiqisini çox sevirəm. Uşaqlığımdan caz dinləyirəm. Amma hazırda orkestrlərlə çalışdığım üçün deyərdim ki, bütün janrları sevirəm. Xalq musiqisini, xüsusilə də Azərbaycan musiqilərini.

*– Azərbaycandan hansı bəstəkarların əsərlərini, hansı ifaçıları dinləyirsiniz?*

– Bəstəkarlardan daha çox Qara Qarayevi, Fikrət Əmirovu. İfaçılardan Rəşid Behbudovu, Polad Bülbüloğlunu dinləyirəm. Xalq mahnılarınız kimi bəstəkarlarınızın əsərləri də möhtəşəmdir.

### "Azərbaycan bəstəkarlarının klassik əsərlərini çox sevirəm"

Şimali Kiprdən gələn pianoçu Rüya Taner Almaniyada anadan olub və 1980-ci illərin əvvəllərində Ankara şəhərində məskunlaşıb və Ankara Dövlət Konservatoriyasında təhsil alıb. O, müasir nəslin aparıcı türk pianoçularından biri kimi tanınır. Bir sıra beynəlxalq müsabiqələrin qalibidir, dünyanın bir çox şəhərlərində konsert proqramları ilə çıxış edib.

*– Bildiyim qədər, bu, Bakıda ilk çıxışınız deyil...*

– Bir neçə dəfə Bakıda olsam da, bu dəfə uzun bir ara oldu. Çox böyük həyəcanla, həsrətlə yenidən buradayam. Hər dəfə də fərqli layihə ilə gəlirik. Bu dəfə də "Bir pianoçu, bir yazar" layihəsi ilə qastrol səfərindəyik. Konsert proqramında türkülərimizdən də improvizələr var. Eyni zamanda ötən il buraxılan albomumdan şəxsi aranjiman və kompozisiyalar da təqdim etdik.

*– Azərbaycan musiqisi ilə tanışlığınız varmı?*

– Əlbəttə. Qara Qarayevin prelüdlərini bir sıra konsertlərimin proqramına daxil etmişəm. Bakı konsertimdə də səsləndirmişəm. Vasif Adıgözəlovun da əsərlərinə müraciət edirəm. Azərbaycan bəstəkarlarının klassik əsərlərini çox sevirəm. İnanıram ki, bu mədəni mübadiləmiz davamlı olacaq. Onu da deyim ki, mərhum bəstəkar Musa Mirzəyevlə tanışlığımız olub. Tofiq Bakıxanovla əlaqələrimiz var.

*– "Bir pianoçu, bir yazar" layihəsi necə yarandı?*

– Kürşad bəylə 30 il öncə tanış olduq. O, Türkiyədə musiqi yaradıcılığımı ilk dəfə işıqlandırmışdı. Şimali Kiprdə yaşadıqları dövrdə atalarımız dost idilər. Bir neçə il öncə Kürşad bəyin konsertinə getdim. Gələcək planları nəzərdən keçirdik və "Bir pianoçu, bir yazar" layihəsi meydana çıxdı. Bu layihə ilə 12 ölkədə çıxış etmişik və böyük maraqla qarşılanıb. Həm musiqimizi, həm də ədəbiyyatımızı tanıdırıq. Yəni ifalar arası Kürşad Başar qısa hekayə, yaxud Türk dünyasının tanınmış yazarlarından da aforizmlər söyləyir...

*– Gələcəkdə Azərbaycan xalq musiqilərindən konsert proqramlarınıza daxil etmək fikriniz varmı?*

– Növbəti konsertdə mütləq.

*– Uğur olsun.*

**Lalə Azəri**

# Cəfər Bünyadzadənin külliyyatı bir kitabda

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Elmi şurasının qərarı ilə "Cəfər Bünyadzadə: igid oğul və yaxud vətən məhəbbəti" kitabı işıq üzü görüb. Kitabı institutun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Aytən Quliyeva nəşrə hazırlayıb.

Nəşrdə Azərbaycan ədəbiyyatı və mətbuatı tarixində özünəməxsus yeri olan yazıçı-publisist, pedaqoq, "Tuti" satirik məcmuəsinin redaktoru Cəfər Bünyadzadənin (1886-1918) müəllifi olduğu, əski əlifbada çap edilmiş və Əlyazmalar İnstitutunda mühafizə olunan "Mən məktəb istəyirəm", "Dağarcıq", "Kəşküli-nəğəm", "Kəşkül və yaxud nəğmələr məcmuəsi" kitabçaları yer alıb. A.Quliyeva tərəfindən transfoneliterasiya edilərək nəşrə hazırlanan kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Kitabın elmi redaktoru filologiya elmləri doktoru Nailə Səmədovadır.




# Qanunsuz yerləşdirilən, abidələrin görkəmini pozan...

## Reklam lövhələri sökülüb



Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən ölkə ərazisində yerləşən tarix-mədəniyyət abidələrinin qorunması və mövcud qanunvericilik çərçivəsində istifadəsi istiqamətində təbliğat və maarifləndirmə işləri davam etdirilir.

Dövlət Xidmətindən bildirilib ki, mütəmadi olaraq abidələrin bədii-estetik görkəminə xələl yetirilməsinin yolverilməz olduğu, reklam lövhələrinin qanuna uyğun şəkildə yerləşdirilməsi, təmir, tikinti, bərpa və digər işlər zamanı müvafiq qurumların məlumatlandırılmasının zəruriliyi barədə məlumat və izahlar verilir.

Nəticədə bu sahədə qanunvericiliyin tələblərinin təmin olunması ilə bağlı fiziki və hüquqi şəxslər tərəfindən təşəbbüs göstərənlərin sayı da artmaqdadır. İstifadəsində və ya mülkiyyətində abidələr olan şəxslərlə əməkdaşlıq nəticəsində abidələrin bədii-estetik görkəminə, tarixi əhəmiyyətinə, xarici quruluşuna, konstruktiv dayanıqlığına xələl gətirən hallar aradan qaldırılır.

Cari il ərzində Dövlət Xidməti Bakı Regional İdarəsinin əməkdaşları tərəfindən paytaxtda yerləşən abidə-binalarda fəaliyyət göstərən obyektlərdə qanunsuz yerləşdirilən, abidələrin xarici görkəmini pozan 400-ə yaxın reklam lövhəsi müəyyən olunub. Nöqsanlardan bir qismi aparılan söhbətlər nəticəsində qısa zamanda həllini tapıb. Digər bir qismi Dövlət Reklam Agentliyi ilə əməkdaşlıq çərçivəsində fasadlardan sökülərək nöqsanlar aradan qaldırılıb. Hazırda bu istiqamətdə həyata keçirilən tədbirlər davam etdirilir.

"Bir daha bütün vətəndaşlarımızı tarix-mədəniyyət abidələrinin mühafizəsinə, gələcək nəsillərə tam şəkildə çatdırılmasına dəstək göstərməyə, dövlət tərəfindən mühafizə edilən abidələrin qorunub saxlanılmasında iştiraka səsləyirik. Eyni zamanda istifadəsində və ya mülkiyyətində tarixi abidələr olan vətəndaşlarımızı abidələrimizin, eləcə də şəhərimizin estetik görünüşünün qorunmasına həssas yanaşmağa çağırırıq", – deyə məlumatda bildirilib.

# Misir paytaxtında Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konsert

Qahirə Opera Evində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş klassik musiqi konserti keçirilib.



Misirdəki səfirliyimiz, Misirin Mədəniyyət Nazirliyi və Qahirə Opera Evi tərəfindən təşkil edilən konsertdən əvvəl Azərbaycan səfiri Elxan Poluxov çıxış edərək Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətlərindən, ölkəmizin ərəb dövlətləri ilə əlaqələrin inkişafına verdiyi töhfələrdən bəhs edib. Qeyd edib ki, Heydər Əliyev Azərbaycanın Misirlə əməkdaşlığına da xüsusi diqqət yetirirdi.

Misirin dövlət və hökumət nümayəndələri, tanınmış incəsənət xadimləri də konsertə gələnlər arasında olublar. Xalq artisti Yalçın Adıgözəlovun dirijorluğu ilə Misirin görkəmli musiqiçisi Əhməd əl-Səidin bədii rəhbəri olduğu Qahirə Simfonik Orkestri və Xor Kapellası Fikrət Əmirovun "Azərbaycan kapriççiosu" və "Fortepiano və orkestr üçün ərəb mövzularında konsert", Qara Qarayevin "Adajio" və "Yeddi gözəl" baletindən rəqs, Soltan Hacıbəyovun "Karvan", Niyazinin "Konsert valsı", Tofiq Bakıxanovun "Xeyir və Şər" baletindən valsı ifa ediblər. Pianoda solist qismində Xalq artisti Yeganə Axundova çıxış edib.

Tədbir çərçivəsində Qahirə Opera Teatrının foyesində səfirliyimizin təşəbbüsü və dəstəyi ilə yeni işıq üzü görən nəşr – misirli jurnalist, Asiya ölkələri üzrə tədqiqatçı Əhməd Tarabek tərəfindən qələmə alınmış "Heydər Əliyevin düşüncələrində Ərəb və İslam aləmi" kitabı təqdim edilib.

Maraqla qarşılanan konsert yerli mətbuat orqanları tərəfindən işıqlandırılıb.

# Azərbaycanın turizm imkanları Qətərdə tanıdılıb

Azərbaycan Turizm Bürosu tərəfindən ölkəmizin turizm sənayesinin nümayəndələri və Qətər turizm sektorunun təmsilçiləri üçün işgüzar şam yeməyi təşkil edilib. Tədbirdə Azərbaycanın Qətər Dövlətindəki Səfirliyinin əməkdaşı da iştirak edib.

Dövlət Turizm Agentliyindən bildirilib ki, tədbirin məqsədi Qətər ilə Azərbaycan arasında turizm əlaqələrini genişləndirmək, turizm istiqaməti kimi ölkəmiz haqqında məlumatlılığı artırmaq, işgüzar turizmin təbliği və digər mövzularda əməkdaşlığı gücləndirməkdir.

Tədbir zamanı Azərbaycanın turizm imkanları haqqında təqdimat olub. Yerli tərəfdaşlar tərəfindən təsadüfi seçim əsasında qonaqlara hədiyyələr və sertifikatlar təqdim edilib.

# Abdulla Şaiqin "Çoban" pyesi Qardabanidə uşaq teatrında səhnəyə qoyulub

Tbilisidəki Mirzə Fətəli Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində Abdulla Şaiqin uşaqlar üçün yazdığı "Çoban" pyesinin motivləri əsasında hazırlanmış eyniadlı tamaşanın premyerası olub.



Noyabrın 26-da nümayiş olunan tamaşa Qardabanidə fəaliyyət göstərən "BEEZ" uşaq teatrının kollektivi tərəfindən səhnələşdirilib.

Premyeranı Azərbaycanın və Türkiyənin Gürcüstandakı səfirliklərinin əməkdaşları da izləyiblər.

"BEEZ" uşaq teatrının bədii rəhbəri Binəli İslamoğlu bildirib ki, indiyədək Azərbaycan və gürcü yazıçılarının əsərləri əsasında bir neçə səhnəcik hazırlayaraq tamaşaçılar qarşısına çıxıblar. Məqsəd günümüzün reallığı olan bəzi hadisələri orijinallığı ilə diqqətə çatdırmaqdır.

Teatrın balaca aktyorları Nuri Qurbanov, Zəhra Akif, Seymur Muradov, Əzəm Əfəndiyeva və Məryəm Əliyeva rolları məharətlə ifa ediblər.

Tamaşa zamanı Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasından hissələr də ifa edilib.

# "Peyğəmbərin nəğməsi"nə "Buker" mükafatı verilib

İngilis dilində ədəbiyyat üzrə ən nüfuzlu təltif sayılan "Buker" mükafatının (The Booker Prize) 2023-cü il üçün qalibi irlandiyalı yazıçı Pol Linç (Paul Lynch) olub. O, faciənin astanasında olan ailənin və ölkənin hekayətini təsvir edən "Peyğəmbərin nəğməsi" (Prophet Song) romanına görə mükafata layiq görülüb.




Yazıçının sayca beşinci romanı Qərb demokratiyalarındakı iğtişaşları və Suriyada alovlanan münaqişə kimi fəlakətlərə laqeydliyi göstərməyə çalışır.

"Bu əsər emosional təsvirin təntənəsidir, ruhlandırıcı və cəsarətli romandır. "Peyğəmbərin nəğməsi", hazırda mövcud olan sosial və siyasi təlatümləri əks etdirir. Oxucuları təsirli və həqiqətə yaxın əsərlə tanışlıq gözləyir, onlar kitabda əksini tapan tövsiyələri hələ uzun müddət xatırlayacaqlar" – mükafatın təşkilat komitəsi kitab haqqında bu sözləri yazıb.

"Oxucunu kitabdakı hadisələrə elə köklənmək istəmişəm ki, əsərin sonunda o bu problemi özlüyündə bütün təfərrüatı ilə hiss edə bilsin" – bunu isə Pol Linç "Buker" mükafatının saytında dərc olunan şərhlərində yazıb.

Müsabiqə təşkilatçılarının bildirdiyinə görə, o, Ayris Merdok, Con Banvil, Roddi Doyl və Enn Enraytdan sonra "Buker" mükafatına layiq görülən beşinci İrlandiya yazıçısıdır. Bundan əlavə, 2018-ci ildə bu mükafatı Şimali İrlandiya (Böyük Britaniyanın tərkibindədir) yazıçısı Anna Berns qazanıb.

1977-ci ildə İrlandiyanın Limerik şəhərində anadan olan Pol Linç yazıçılıq karyerasına 2013-cü ildə başlayıb, o vaxta qədər isə kino tənqidçisi kimi fəaliyyət göstərib. Özünün sözlərinə görə, onun yaradıcılığına Fyodor Dostoyevskinin "Yer altından məktublar", Herman Melvillin "Katib Bartlbi", Vilyam Folknerin "Mən ölərkən" əsərlərinin güclü təsiri olub.

"Buker" mükafatı 1968-ci ildə Buker-Makkonnel (Booker-McConnel) qida şirkətinin dəstəyi ilə təsis edilib. İngilis dilində yazan müəlliflərə verilən mükafatın məbləği 50 min funt-sterlinqdir.

2005-ci ildən isə mükafata əlavə olaraq "Beynəlxalq Buker mükafatı" (The İnternational Booker Prize) da təsis edilib. Bu mükafat ingilis dilinə tərcümə olunmuş və Böyük Britaniyada çap edilmiş əsərlərə verilir. Onun da məbləği 50 min funt-sterlinqdir və müəllif ilə əsərin tərcüməçisi arasında bərabər bölünür. 2023-cü il üzrə bu mükafatın qalibləri bolqarıstanlı yazıçı Georgi Qospodinov və onun "Zaman sığınacağı" romanını ingilis dilinə tərcümə etmiş amerikalı Angela Rodel olub.




Olaylar, faktlar (28–30 noyabr)



### 170 il əvvəl...

**30 noyabr 1853-cü ildə** Krım müharibəsi (1853–1856) gedişində Rusiya və Osmanlı donanmaları arasında Sinop döyüşü olub. Bu, dəniz müharibələri tarixində yelkənli gəmilərin iştirak etdiyi sonuncu döyüş idi. Sinop buxtası yaxınlığındakı döyüşdə Rusiya donanması qələbə çalıb. Bununla belə, Rusiya Krım müharibəsini uduzdu.

### 111 il əvvəl...

**28 noyabr 1912-ci ildə** Albaniya Osmanlı imperiyasından (1479-cu ildən onun tərkibində idi) müstəqilliyini elan edib. Osmanlı Balkan müharibəsində (1911-1912) məğlub olandan sonra bölgə ölkələri üzərində nəzarəti itirmişdi. Albaniya az sonra İtaliyanın nəzarətinə düşdü.

### 84 il əvvəl...

**30 noyabr 1939-cu ildə** SSRİ ilə Finlandiya arasında müharibə başlanıb. Müharibəyə səbəb SSRİ-nin Karel zolağını (indiki Leninqrad vilayətinin bir hissəsi) Finlandiyadan (1918-ci ilədək Rusiya imperiyasının tərkibində olub) geri almaq niyyəti idi. SSRİ müharibəni bir-iki həftəyə bitirməyi planlaşdırsa da, istəyinə 4 ay sonra və böyük itkilər hesabına nail oldu. 1940-cı il martın 12-də imzalanan sülh sazişi ilə Finlandiya bu bölgəni SSRİ-nin ərazisi kimi tanıdı.

### 80 il əvvəl...

**28 noyabr 1943-cü ildə** SSRİ, ABŞ və Britaniya dövlət başçılarının Tehran konfransı işə başlayıb. Bu, Stalin, Ruzvelt və Çörçillin ilk görüşü idi. Dekabrın 1-dək davam edən konfransda Almaniyaya qarşı ikinci cəbhənin açılması razılaşdırıldı. Avropada ikinci cəbhə 1944-cü ilin yayında açıldı.

### 78 il əvvəl...

**29 noyabr 1945-ci ildə** Yuqoslaviya Xalq Federativ Respublikası (YXFR) yaranıb. Yuqoslaviya ərazisi 5 əsrə yaxın Osmanlı imperiyasının tərkibində olub, I Dünya müharibəsindən sonra, 1918-ci ildə Serbiya, Çernoqoriya, Sloveniya, Bosniya və Herseqovina, Makedoniya birləşmiş krallıq (1929-cu ildən Yuqoslaviya) yaradıblar. II Dünya müharibəsindən sonra monarxiyaya son qoyuldu və federativ respublika yarandı. 90-cı illərdə Yuqoslaviya parçalandı və hazırda onun yerində altı dövlət var.



### 76 il əvvəl...

**29 noyabr 1947-ci ildə** BMT Baş Assambleyası Yaxın Şərqdəki tarixi Fələstin ərazisində iki müstəqil dövlətin – yəhudi və ərəb dövlətlərinin yaradılması haqqında qətnamə (141 saylı) qəbul edib. Qətnamədən bir neçə ay sonra (1948-ci ilin mayı) birtərəfli qaydada İsrail dövləti yarandı. Ərəb ölkələri onu tanımalıdır və bu günədək davam edən Fələstin münaqişəsi başlandı.

### 63 il əvvəl...

**28 noyabr 1960-cı ildə** Fransanın Şimali Afrikadakı müstəmləkəsi (1920-ci ildən) olan Mavritaniya müstəqilliyini elan edib, Mavritaniya İslam Respublikası yaranıb.

### 33 il əvvəl...

**29 noyabr 1990-cı ildə** Prezident Ayaz Mütəllibov Azərbaycan SSR-in Azərbaycan Respublikası adlandırılması və üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı elan edilməsi barədə fərman imzalayıb. Bundan öncə, 17 noyabrda Naxçıvan Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən iclasında bayraqla bağlı və "Sovet Sosialist" sözlərindən imtina haqqında qərar qəbul edilmişdi. 1991-ci ilin 5 fevralında Azərbaycan Ali Soveti hər iki məsələyə dair qanunlar qəbul etdi.

**Hazırladı: V.Orxan**

# Mədəniyyətimiz Fransada festivallarda təqdim olunub

*əvvəli səh. 1-də*

Səfir Leyla Abdullayeva festivalın təşkilatçılarına, eləcə də assosiasiya rəhbərlərinə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın dəstəyi ilə UNESCO-nun müvafiq siyahısına daxil edilmiş mədəni irs nümunələrindən kəlağayı, eləcə də tar və kamança musiqi alətləri haqqında məlumat verib, xalqımızın çoxəsrlik adət-ənənələrindən, milli mətbəx və geyimlərimizdən danışıb.



Azərbaycan səfiri yerli radioya da mədəniyyətimiz və mətbəximizlə bağlı müsahibə verib.

***



Fransadakı səfirliyimizin dəstəyi ilə Azərbaycan Tours şəhərində təşkil edilmiş Dil festival"ında da təmsil olunub. Festivalda 50 ölkə iştirak edib.

Azərbaycan səfirliyi tərəfindən mədəniyyətimizə, milli mətbəximizə dair kitablar, ölkəmizin coğrafiyasını, milli geyimləri əks etdirən açıqcalar nümayiş olunub. Naxçıvan motivləri ilə təqdim olunan stendimizdə Ordubad sucuğu ziyarətçilər tərəfindən çox bəyənilib. Həmçinin Azərbaycan mətbəxinin dadlı təamlarının resepti, milli bəzək nümunələri nümayiş olunub və ziyarətçilərə hədiyyə edilib.

Eşqi Camalovun təqdimatında Azərbaycan mədəniyyəti, rəqslərimiz, "Şərur yallısı" haqqında məlumat verilib. Ziyarətçilər, eləcə də Tours şəhərində yaşayan soydaşlarımız yallı rəqsinə qoşulublar.

Qeyd edək ki, festivalda Azərbaycan stendinin təşkilatçısı Eşqi Camalov Poitiers Universitetində İKT üzrə müəllim işləyir.

# Salyerinin iki əsr sonra tapılan balet musiqisi

İtalyan bəstəkarı Antonio Salyerinin (1750-1825) yeni tapılan balet musiqisi iki yüz ildən sonra ilk dəfə "Lincoln Pro Musica" orkestri tərəfindən ifa olunub.

Haddersfild Universitetinin tələbəsi Ellen Stokes bəstəkarın "Europe Riconosciuta" operasının not əlyazmasını Avstriya kitabxanasının arxivində tapıb. Doktoranturada təhsil alan qız bildirib ki, itirilmiş bu əsərin notlarını tapmaq heyrətamiz olub. O, Vyanadakı Avstriya Milli Kitabxanasına gedib və burada dörd əlyazmanın vərəqləri arasında "qarışdırılmış" "Pafio e Mirra" adlı balet üçün musiqi notlarını da aşkar edib. Tələbə qız deyib: "İnanıram ki, Salyerinin baletlərindən birinə yeni həyat bəxş etmişəm. Bu, onun alman bəstəkar Kristoff Qlyuk tərəfindən sifariş edilmiş operasının fasiləsinə əlavə olan əsər idi. Balet operanın ortasında ifa olunurdu. İndiyədək bu balet itmiş hesab olunur, bəzi musiqişünaslar isə onun yalnız fraqment şəklində mövcud olduğunu düşünürdülər...".

Salyerinin "Europe Riconosciuta" operasının premyerası (balet bölməsi ilə) 1778-ci ildə Milanda olub. Uzun fasilədən sonra, 2004-cü ildə opera yenidən tamaşaya qoyulub, lakin həmin quruluşda balet bölməsi olmayıb.

Qeyd edək ki, Antonio Salyeri Avropanın tanınmış bəstəkarlarından olub. O, həmçinin öz rəqibi Volfqanq Amadey Motsartın ölümündə əli olduğu barədə şayiələr yayıldıqdan sonra daha çox, lakin mənfi şöhrət qazanıb.

"Mədəniyyət" qəzetinin kollektivi aktyor, Şabran Xalq teatrının bədii rəhbəri və rejissoru olmuş

**Cabir Əmrahovun**

vəfatı ilə əlaqədar mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5053. **Sifariş:** 3164
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641